RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 247 (8270) ÇƏRŞƏNBƏ, 6 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Goranboy rayonunun Yuxarı Ağcakənd qəsəbəsində Xocalı filialı üçün xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturun yaradılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Goranboy rayonunun Yuxarı Ağcakənd qəsəbəsində Xocalı filialı üçün xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.24.14-cü yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2019-cu il*

## Milli Məclisin komitələrində 2020-ci ilin dövlət büdcəsi müzakirə olunub



Noyabrın 5-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, Təbii ehtiyatlar, energetika və ekologiya, Aqrar siyasət və İctimai birliklər və dini qurumlar komitələrinin birgə iclası keçirilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, bugünkü iclasda "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirə olunacaq. Komitə sədri qeyd edib ki, illər keçdikcə Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə öz büdcə parametrlərinin daha da yaxşılaşdırılması üçün tədbirlər görür. Büdcə layihəsi "Büdcə sistemi haqqında" qanuna uyğun olaraq vaxtında Milli Məclisə təqdim edilib. 2020-ci ilin büdcəsi Azərbaycanın müstəqillik tarixində ən irihəcmli büdcədir.

Gələn ilin büdcəsinin əsas parametrləri barədə məlumat verən Maliyyə naziri Samir Şərifov bildirib ki, 2020-ci ilin icmal büdcəsinin gəlirləri 27 milyard 533 milyon manat təşkil edəcək. İcmal büdcə xərclərinin yuxarı həddi 29 milyard 488 milyon manat olacaq ki, bu da 2019-cu illə müqayisədə 2 milyard 117 milyon manat və ya 7,7 faiz çoxdur. İcmal büdcənin kəsiri 1 milyard 955 milyon manat və ya proqnozla nəzərdə tutulan ümumi daxili məhsulun 2,3 faizinə bərabər olacaq. 2020-ci il dövlət büdcəsinin gəlirləri ümumi daxili məhsulun 29 faizi həcmində olmaqla nominal ifadədə 24 milyard 135 milyon manat nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 967 milyon manat və ya 4,2 faiz çoxdur. Dövlət büdcəsinin gəlirlərinin tərkibində neft gəlirləri 56,1 faiz və ya 13,5 milyard manat, qeyri-neft gəlirləri 43,9 faiz və ya 10,6 milyard manat nəzərdə tutulur. Cari illə müqayisədə xüsusi çəki nisbətində neft gəlirləri 3 faiz bənd azalıb, müvafiq olaraq isə qeyri-neft gəlirlərinin xüsusi çəkisi isə 3 faiz bənd artıb. Vergi orqanlarının xətti ilə dövlət büdcəsinə 7 milyard 875 milyon manat daxilolma nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 559 milyon manat və ya 7,6 faiz çoxdur. Gömrük orqanlarının xətti ilə büdcəyə 4 milyard manat, yəni 2019-cu ilə nisbətən 298 milyon manat və ya 8 faiz çox vəsait daxil olması proqnozlaşdırılır. Növbəti ildə Dövlət Neft Fondundan dövlət büdcəsinə 11 milyard 350 milyon manat və ya cari illə müqayisədə 14,3 milyon manat az transfer nəzərdə tutulur. 2020-ci il dövlət büdcəsinin xərcləri ümumi daxili məhsulun 32,3 faizi səviyyəsində və ya 26 milyard 914 milyon manat nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 1 milyard 724 milyon manat və ya 6,8 faiz çoxdur.

Sonra çıxış edən İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, gələn il neft-qaz sənayesi ilə yanaşı, qeyri-neft sektorunda da əhəmiyyətli artım gözlənilir. Həyata keçirilən kompleks tədbirlər nəticəsində 2020-ci ildə qeyri-neft sahəsində 8,8 faiz artım proqnozlaşdırılır. Nazir qeyd edib ki, növbəti ildə qeyd olunan proqnozların reallaşdırılması üçün biznes mühitinin yaxşılaşdırılması, sahibkarlıq sahəsində yoxlamaların dayandırılması və digər addımların davam etdirilməsi önəmlidir. Görülən işlər nəticəsində qeyri-neft sahəsində ildən-ilə artım qeydə alınır. Bu tendensiyanın növbəti illərdə də davam edəcəyi gözlənilir.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov diqqətə çatdırıb ki, 2020-ci ilin dövlət büdcəsi müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın proqnozlaşdırılan ən böyük büdcəsidir.

Vüqar Gülməmmədov cari ildə dövlət büdcəsinin qeyri-neft gəlirlərinin əhəmiyyətli dərəcədə artdığını diqqətə çatdırıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib ki, görülən işlər nəticəsində ölkəmizdə bu ilin 10 ayı ərzində əməkhaqqı fondu əhəmiyyətli dərəcədə artıb. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan sosialyönümlü dövlətdir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən tədbirlərin mərkəzində vətəndaşlarımızın sosial rifahı dayanır.

*Ardı 2-ci səh.*



# Müstəqil siyasət, dərin islahatlar, yüksələn reytinq

## Prezident İlham Əliyevin yeni iqtisadi strategiyasının formalaşdırdığı möhkəm təməl inkişafın davamlılığına real zəmin yaradıb

**Hər il olduğu kimi, bu il də sosial-iqtisadi sahədə aparılan dərin islahatlarla ölkə iqtisadiyyatı inkişaf dinamikasını saxlamağa müvəffəq olub, dayanıqlılıq və sabitlik nümayiş etdirib. Reallaşan kompleks islahatlar Azərbaycana "ən islahatçı" ölkə imici qazandırmaqla yanaşı, həmçinin davamlı və tarazlaşdırılmış iqtisadi inkişafı təmin edib.**

### İqtisadi sabitləşmə ilindən böyük sosial islahatlar dövrünə...

Bu ilin fevral ayında Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə dövlət başçısı ötən son 3 ilin göstəricilərini dəyərləndirərkən 2017-ci ili iqtisadi sabitləşmə ili, 2018-ci ili dərin iqtisadi islahatlar ili adlandıraraq, 2019-cu ili həm böyük sosial islahatlar ili, həm də iqtisadi artımın yüksək templərlə təmin ediləcəyi dövr kimi qiymətləndirdi.

Həqiqətən də 2017-ci ildə iqtisadi sahədə atılan çox önəmli addımlar 2018-ci ildə keçirilən Prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə təkan verdi və bu il daha da dərinləşən islahatlar yüksək nailiyyətlərlə özünü göstərdi. İlin əvvəlindən başlayaraq sosial-iqtisadi sferada baş verən köklü və sistemli dəyişikliklərə nəzər yetirdikdə bu uğurlara şahidlik etmiş olarıq.

İlin 9 ayının iqtisadi göstəricilərini müsbət qiymətləndirmək olar. Belə ki, kompleks tədbirlər və köklü islahatlar nəticəsində bu dövrdə ÜDM 2,5 faiz, qeyri-neft ÜDM-i 3,5 faiz artıb. ÜDM-də qeyri-neft sektorunun payı 60,7 faiz təşkil edib. Sənayedə 1,7 faiz, qeyri-neft sənayesində 15,6 faizlik məhsul istehsalının artımına nail olunub. Toxuculuq sənayesi 39,2 faiz, kimya sənayesi 20,6 faiz, tütün məmulatları istehsalı 78,5 faiz, qida məhsulları istehsalı 15,1 faiz, içki istehsalı 40,4 faiz, ağac emalı və istehsalı 99 faiz, mebel istehsalı 29,5 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 28,2 faiz, kənd təsərrüfatı 7,1 faiz, rabitə xidmətləri 16,4 faiz artıb. Azərbaycanın xarici dövlət borcu ÜDM-in 17 faizini təşkil edir. Bu göstəriciyə görə ölkəmiz dünyada doqquzuncu yerdə qərarlaşıb. 9 ayda əsas kapitala 10,1 milyard manat sərmayə yönəldilib ki, onun da 6,3 milyard manatı qeyri-neft sektoruna, o cümlədən 1,2 milyard manatı qeyri-neft sənayesinə yatırılıb.

İnflyasiya 2,6 faiz təşkil edib, ərzaq məhsulları 3,5 faiz, qeyri-ərzaq məhsulları 1,3 faiz, xidmətlər 2,4 faiz bahalaşıb. Xarici ticarət dövriyyəsi 13,8 faiz artaraq 25,3 milyard dollar, xarici ticarət saldosu müsbət 4,5 milyard dollar təşkil edib.

*Ardı 3-cü səh.*

## Azərbaycan innovasiyalara açıq ölkədir

İnnovasiya sözünün nə demək olduğunu sadə misalla izah edək: Koroğlu tüfəngi görən kimi qılıncını yerə qoyur ki, daha kişilik zəmanəsi bitdi. Mahiyyət etibarilə tüfəng innovasiya, yəni yeni silah növü idi. Koroğlu bəyənsə də, bəyənməsə də, tüfəng sonradan qoşalüləyə, beşaçılana, avtomata, pulemyota çevrildi, ardınca raketlər, atom və ondan daha müasir silahlar yarandı.

Bu gün innovasiyaları nəzərdən keçirmək üçün elə 2019-cu ilin yeni texnologiyalarını və mühəndislərin hansı sahələrə önəm verdiyini nəzərdən keçirmək üçün bir misal çəkək: indi əti laboratoriyada yetişdirirlər. Məqsəd insanları yalnız ətlə təmin etmək deyil, ətin keyfiyyətini yaxşılaşdırmaq və ekologiyanı qorumaqdır. Bu halda torpaq mal-qaranın ayağı altında tapdanıb erroziyaya uğramayacaq, təbiətin gözəlliyinə xələl gəlməyəcək, havaya atılan metan qazı nəzərəçarpacaq dərəcədə azalacaq. Yəni bu gün innovasiyaların başlıca məqsədi insan həyatının keyfiyyətini yaxşılaşdırmaq, onun ömrünü uzadan amilləri önə çəkməkdir.

Azərbaycanda milli innovasiya sisteminin potensialını uğurla yüksəldə bilmək üçün illərdir ki, ciddi addımlar atılır. Bu gün Azərbaycan nəhəng Rusiya ilə eyni innovativ potensiala malikdir.

*Ardı 6-cı səh.*

Azərbaycan Şəqrlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm coğrafi mövqeyə malik ölkədir. Bir sözlə, ölkəmiz bu iki marşrutun əsas qovşaq mərkəzidir. Müstəqillik əldə etdikdən sonra Azərbaycan qədim İpək yolunun bərpasında təşəbbüskar ölkə kimi çıxış etdi. Məqsəd bu coğrafi imkandan istifadə edərək dünyanın ən işlək tranzit marşrutlarından birinin ölkəmizdən keçməsinə nail olmaq idi.




## Prezidentin siyasi qətiyyəti Azərbaycanın əlverişli coğrafi mövqeyindən səmərəli istifadəyə imkan verir

Şərq-Qərb beynəlxalq əhəmiyyətli tranzit marşrutunun bərpası asan məsələ deyildi. Çünki regionda olan ölkələrin hər biri bu nəqliyyat dəhlizinin öz ərazisindən keçməsi üçün səylə çalışırdı. Xüsusilə şimal qonşumuz Rusiya bu işdə daha fəal idi. Digər tərəfdən, bir sıra beynəlxalq güclər erməni lobbisinin maraqlarını nəzərə alaraq bu marşrutun reallaşmasına mane olurdu.

ABŞ və Avropa bankları layihəni maliyyələşdirməkdən imtina etdikləri üçün Azərbaycan Gürcüstan ərazisində görüləcək işlərin maliyyələşdirilməsini öz üzərinə götürdü. Çünki layihənin reallaşması ilk növbədə Azərbaycan üçün siyasi və iqtisadi dividendlər demək idi. Bu addımla yeni layihənin reallaşmasında qarşıya çıxan ən böyük maneə dəf edildi. Prezident İlham Əliyev BTQ-nin açılış mərasimindəki çıxışında demişdir:

*Ardı 6-cı səh.*

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Noyabrın 5-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə komissiyanın oktyabrın 31-də keçirilmiş iclasının protokolu təsdiq olunub.

Sonra 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişin mətni, forması, sayı və hazırlanma qaydası ilə bağlı məsələyə baxılıb. Qeyd edək ki, bildirişdə seçicinin adı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı, səsvermənin yeri və vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı, həmçinin səsvermə qaydaları ətraflı şəkildə əks olunur. Komissiya üzvlərinin müzakirəsindən sonra səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair 5020287 (beş milyon iyirmi min iki yüz səksən yeddi) bildirişin mətbəə üsulu ilə hazırlanmasına qərar verilib.

Komissiyanın iclasında bələdiyyə seçkiləri ilə əlaqədar Azərbaycan Sosial Demokrat Partiyası və Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə də baxılıb və həmin partiyalar tərəfindən təqdim olunmuş şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər olunub və cari məsələlərə baxılıb.

# Baş Nazir Əli Əsədov Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndə heyəti ilə görüşüb



Noyabrın 5-də Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə mövcud münasibətlər və əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyi münasibətilə İsveçrədə tədbir keçirilib





Noyabrın 4-də İsveçrənin paytaxtı Bern şəhərində Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyi münasibətilə opera konserti və bu ölkənin arxivlərində aparılan araşdırmalar nəticəsində ərsəyə gələn, İsveçrə ilə Azərbaycan arasında diplomatik əlaqələrin tarixinə dair tamamilə yeni faktlar üzə çıxaran kitabın təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, Bern Konservatoriyasında təşkil olunan tədbirdə İsveçrənin yüksəksəviyyəli rəsmi şəxsləri, Avropa İttifaqının, Türkiyənin, Yaponiyanın, ABŞ-ın, Fransanın və digər ölkələrin Berndə akkreditə olunmuş səfirləri, diplomatik korpusun digər üzvləri, yerli hökumət qurumlarının və ictimaiyyətin nümayəndələri, Yəhudi İcmasının prezidenti, Azərbaycan-İsveçrə Birgə İqtisadi Komissiyasının İsveçrə tərəfdən həmsədri, deputatlar, nüfuzlu siyasətçilər və tanınmış biznes nümayəndələri, aparıcı şirkətlərin icraçı direktorları, həmçinin Azərbaycan diasporunun təmsilçiləri iştirak ediblər.

Azərbaycan Respublikasının İsveçrə Konfederasiyası və Lixtenşteyn Knyazlığındakı səfiri Xanım İbrahimova çıxış edərək tədbirin Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyi ilə yanaşı, Dünya Azərbaycanlılarının Həmrəylik Gününə də həsr olunduğunu bildirib.

X.İbrahimova vurğulayıb ki, səfirlik Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyinə üç tədbirlə töhfə verir. Bu tədbirlərdən birincisinin Xalq artisti Fidan Hacıyevanın ifasında opera konsertinin olduğunu söyləyən diplomat konsertin repertuarının seçimində Azərbaycanın müsəlman aləmində ilk operanın bəstələndiyi məkan olması nəzərə alınıb.

İkinci tədbirin İsveçrənin federal arxivlərində birillik araşdırmalara əsaslanan kitabın təqdimatı olduğunu söyləyən səfir XX əsrin əvvəllərində ölkələrimiz arasında diplomatik əlaqələrin tarixinə dair indiyədək məlum olmayan faktları üzə çıxaran nəşri oxuculara təqdim etməkdən qürur duyduqlarını bildirib. Vurğulanıb ki, kitabda Qafqazda konfederasiya qurulması təşəbbüslərinin uğursuzluğa düçar olmasının, Azərbaycanın İsveçrə üçün maraq kəsb etməsinin səbəbləri araşdırılır və təhlil olunur. Bundan başqa, kitabda həmin dövrdə Azərbaycandakı isveçrəlilər və onlar tərəfindən sərmayə qoyulmuş sahələr haqqında da məlumat verilir. Qeyd olunub ki, geniş oxucu kütləsi üçün nəzərdə tutulan nəşrdə diqqətçəkən məqamlardan biri İkinci Dünya müharibəsində itkin düşmüş və taleləri bu günədək naməlum qalan 300-dən artıq azərbaycanlı əsgərin aqibətinə ilk dəfə aydınlığın gətirilməsidir. Səfir Azərbaycan-İsveçrə münasibətlərinin müxtəlif aspektləri haqqında arxiv sənəd və materiallar, tarixi mənbələr əsasında hazırlanmış bu kitabı zəngin diplomatiya irsimizin öyrənilməsinə və araşdırılmasına dəyərli töhfə kimi qiymətləndirib.

Məlumat verilib ki, üçüncü tədbir Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyi, eləcə də Azərbaycan-İsveçrə əlaqələrinin uğurlu inkişafı münasibətilə Turqau kantonu Hökuməti ilə birgə Frauenfeld şəhərində simvolik ağacəkmə mərasimi olacaq. Bu tədbir noyabrın 6-da keçiriləcək.

Azərbaycan-İsveçrə əlaqələrinə toxunan səfir dövlət başçısının cari ilin yanvarında bu ölkəyə işgüzar səfəri çərçivəsində isveçrəli həmkarı ilə görüşdüyünü qeyd edib. Bildirib ki, Azərbaycan ilə Davos İqtisadi Forumu arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyub və ölkəmiz forumun 4-cü Sənaye İnqilabı Mərkəzi ilə əməkdaşlığa başlayıb. İl ərzində İsveçrə parlamentinin sədrinin və Xarici Məsələlər üzrə dövlət katibinin müavininin rəhbərlik etdiyi nümayəndə heyətlərinin Bakıya, Azərbaycandan isə İqtisadiyyat nazirinin rəhbərlik etdiyi nümayəndə heyətinin Hökumətlərarası İqtisadi Komissiyanın 8-ci iclasında iştirak etmək üçün Bernə səfər etdiyi diqqətə çatdırılıb.

Sonra çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edib ki, Birinci Dünya müharibəsindən sonra cərəyan edən gərgin bir dövrdə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin maraqlarını beynəlxalq aləmdə layiqincə təmsil etmək üçün müsəlman Şərqində ilk Respublikanın Xarici İşlər Nazirliyi təsis edilib. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən çoxşaxəli diplomatik fəaliyyətə başlamış, lakin Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimatın qəbul olunması məhz 1919-cu il iyulun 9-na təsadüf etmişdir. Məhz buna görə də Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 24 avqust tarixli sərəncamı ilə həmin gün Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü təsis edilib.

Həmçinin bildirilib ki, çoxmillətli parlamentə məxsus gənc demokratik respublikanın hökumətində də bir çox millətlərin nümayəndələri təmsil olunurdu. Tolerant bir cəmiyyətin qurulduğu gənc dövlətdə ilk ali təhsil ocağı - Bakı Dövlət Universiteti təsis olundu, yüzdən artıq azərbaycanlı tələbə təhsil almaq üçün xarici ölkələrə göndərildi. Qısa müddət ərzində bir çox nailiyyətlərə imza atılmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı.

Cümhuriyyətimizin qısa ömür yaşamasına baxmayaraq, ilk Respublikanın Xarici İşlər Nazirliyinin diplomatik heyəti geniş təcrübəyə yiyələndi, mühüm nailiyyətlər əldə etdi və müstəqil xarici siyasət fəaliyyətimizin əsasını qoydu.

Hikmət Hacıyev vurğulayıb ki, yerləşdiyi regionun ətrafında cərəyan edən ziddiyyətli proseslərə baxmayaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmizdə daxili sabitlik və inkişaf, iqtisadiyyatın müsbət artım dinamikası təmin edilib, həyata keçirilən irimiqyaslı layihələr beynəlxalq səviyyədəki mövqeyimizi və nüfuzumuzu daha da möhkəmləndirib.

Daha sonra Azərbaycanın Xalq artisti Fidan Hacıyeva, beynəlxalq müsabiqələr laureatları - pianoçu Zülfiyyə Sadıqova və violonçel ifaçısı Alina Kudelevits konsert proqramı ilə çıxış ediblər. Musiqiçilərin ifasında həm xarici, həm də Azərbaycan bəstəkarlarının ölməz əsərləri, o cümlədən Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından bir hissə və "Sevgili canan" romansı, Qara Qarayevin əsərləri, eləcə də Müslüm Maqomayevin "Azərbaycan" mahnısı və s. səsləndirilib.

Sonda qonaqlar Azərbaycan və Avropa mətbəxinin təamlarından dadıblar.

# Bakıda Azərbaycan-Türkiyə 12-ci yüksəksəviyyəli hərbi dialoq iclası işə başlayıb

Noyabrın 5-də Bakıda Azərbaycan-Türkiyə 12-ci yüksəksəviyyəli hərbi dialoq iclası işə başlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətlərinin geniş tərkibdə iştirak etdikləri iclasda həmsədrlərin çıxışları dinlənib, regional təhlükəsizlik mühitinin vəziyyətinə dair brifinqlər təqdim olunub. Sonra iclas yardımçı işçi qruplarda davam edib.

Noyabrın 7-dək davam edəcək iclasda Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil, hərbi sənaye və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti, inkişaf perspektivləri, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün əsas fəaliyyət istiqamətləri müzakirə ediləcək, eləcə də 2020-ci il üçün fəaliyyət planı razılaşdırılacaq.

İclasın Azərbaycan tərəfdən həmsədri Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, Türkiyə tərəfdən isə Baş Qərargahın ikinci rəisi general-polkovnik Metin Gürakdır.

# Milli Məclisin komitələrində 2020-ci ilin dövlət büdcəsi müzakirə olunub



Əvvəli 1-ci səh.

Nazir qeyd edib ki, 2020-ci ildə əhaliyə ödənişlərin məbləğində artım gözlənilir. Bu ödənişlər demək olar ki, hər il artırılır. Gələn il özünüməşğulluq proqramının daha da genişləndirilməsi nəzərdə tutulur.

Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov isə bildirib ki, 2020-ci ildə qarşımızda dayanan başlıca vəzifə makroiqtisadi sabitliyin təmin olunmasıdır. Elman Rüstəmov qeyd edib ki, növbəti ildə də qiymət sabitliyi və manatın məzənnəsinin dayanıqlılığı diqqət mərkəzində olacaq. Artıq üçüncü ildir ki, manatın xarici valyutaya nisbəti sabitdir.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev ölkəmizdə kölgə iqtisadiyyatı ilə mübarizədə əldə olunmuş uğurlardan danışıb. Qeyd edib ki, bunun nəticəsində dövlət büdcəsinə daxilolmaların həcmi artıb. Növbəti ildə də bu məsələ gömrük orqanlarının diqqət mərkəzində olacaq. Səfər Mehdiyev bildirib ki, gələn il də Dövlət Gömrük Komitəsi tərəfindən büdcəyə daxilolmaların həcminin artırılması proqnozlaşdırılır.

Dövlət Neft Fondunun sədri Şahmar Mövsümov Fondun gəlir və xərcləri barədə məlumat verib. Bildirib ki, gələn ilin büdcəsində neftin bir barelinin qiyməti 55 dollar nəzərdə tutulub.

2020-ci ilin dövlət büdcəsi layihəsinin müzakirələri zamanı çıxış edən Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, deputatlardan Vahid Əhmədov, Əli Məsimli, Şəmsəddin Hacıyev, Fazil Mustafa və Mirzəcan Xəlilov büdcə layihəsi barədə fikirlərini bildiriblər, qeydlərini və təkliflərini veriblər.

İclasın sonunda Maliyyə naziri Samir Şərifov deputatların qaldırdıqları məsələlərə münasibətini bildirib, bir sıra təkliflərin nəzərə alınacağını diqqətə çatdırıb.

Sonra 2020-ci ilin dövlət büdcəsi layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Bununla da beş komitənin birgə iclası başa çatıb.

*AZƏRTAC,*
*Foto F.BAĞIROVUNDUR*

# Müdafiə naziri Türkiyənin yüksəksəviyyəli hərbi nümayəndə heyəti ilə görüşüb



Noyabrın 5-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan-Türkiyə 12-ci yüksəksəviyyəli hərbi dialoq iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Baş Qərargahının ikinci rəisi general-polkovnik Metin Gürakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında münasibətlərin dostluq və qarşılıqlı inam üzərində qurulduğunu xatırladan general-polkovnik Zakir Həsənov Azərbaycanın müdafiə qüdrətinin artırılması məqsədilə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində Türkiyə ilə əməkdaşlığı genişləndirdiyini qeyd edib. Nazir bildirib ki, bu, bölgədəki sabitliyi təmin edən əsas amillərdəndir.

Terrorçuluqla mübarizədə Türkiyə xalqının rifahı uğrunda şəhid olanlara Allahdan rəhmət, yaralılara şəfa diləyən Müdafiə naziri separatizmə qarşı mübarizə aparan ölkə olaraq Azərbaycanın Türkiyəni tam dəstəklədiyini diqqətə çatdırıb.

Müdafiə naziri Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın ikitərəfli əsasda və NATO tərəfindən həyata keçirilən proqramlar çərçivəsində aparıldığını qeyd edib. Nazir dostluq və qardaşlıq münasibətləri üzərində qurulan Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının daim inkişaf etdiyini xüsusi vurğulayıb.

General-polkovnik M.Gürak ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrindən, o cümlədən səmərəli əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə edib. Qonaq Azərbaycan və Türkiyə hərbçilərinin Bakıda növbəti görüşünün təşkilinə görə general-polkovnik Z.Həsənova minnətdarlığını bildirib.

Ölkələrimizin yerləşdiyi regionda baş verən son hadisələrin müzakirə olunduğu görüşdə Azərbaycan-Türkiyə ikitərəfli formatında, həmçinin Pakistan, Gürcüstan, eləcə də türkdilli dövlətlərin müxtəlif qoşun növlərinin, o cümlədən xüsusi təyinatlı qüvvələrin cəlb edilməsi ilə birgə hərbi təlimlərin keçirilməsi, təcrübə mübadiləsi məqsədilə hərbi qulluqçuların qarşılıqlı səfərlərinin təşkili və digər maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan-İsveçrə əlaqələrinin inkişaf perspektivlərinə dair müzakirələr aparılıb



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsveçrəyə işgüzar səfəri çərçivəsində bu ölkənin Xarici İşlər üzrə dövlət katibinin müavini Kristina Marti Lanq, prezidentin diplomatik müşaviri Terens Billeter, Azərbaycan Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın həmsədri, Federal Şuranın ticarət sazişləri üzrə nümayəndəsi, İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin İkitərəfli iqtisadi əlaqələr idarəsinin rəhbəri Ervin Bolinqerlə görüşlər keçirib.

Görüşlərdə Azərbaycan ilə İsveçrə arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib, əlaqələrin inkişaf perspektivlərinə dair müzakirələr aparılıb.

İsveçrənin Xarici İşlər Nazirliyində keçirilmiş görüşdə Hikmət Hacıyev qarşı tərəfi Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövrü üçün prioritetləri, Ermənistan rəhbərliyinin danışıqlar prosesinə zərbə vuran son ziddiyyətli bəyanatları kontekstində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivləri barədə məlumatlandırıb, Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkə iqtisadiyyatı, məhkəmə-hüquq sistemi və dövlət idarəçiliyində həyata keçirilən islahatlar prosesi ilə yaxından tanış edib.

İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyində keçirilmiş görüşdə Azərbaycanın iştirak etdiyi və həyata keçirdiyi nəqliyyat dəhlizi layihələri, eləcə də iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

*AZƏRTAC*

# Azərbaycan-İsveçrə əməkdaşlığında parlament ölçüsünün əhəmiyyəti vurğulanıb

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsveçrə parlamentinin yuxarı palatası Kantonlar Şurasının (Senat) Xarici əlaqələr komitəsinin sədri, İsveçrə-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Filippo Lombardi və dostluq qrupunun parlamentin aşağı palatası Milli Şuradan həmsədri, Montrö şəhərinin meri və İsveçrə Xarici Siyasət Assosiasiyasının vitse-prezidenti Loran Verli ilə görüşlər keçirib.

AZƏRTAC xəbər verir ki, görüşlərdə iki ölkə arasında əməkdaşlıqda parlament ölçüsünün əhəmiyyəti vurğulanıb. Hikmət Hacıyev qarşı tərəfə ölkəmizdə geniş vüsət almış islahat prosesləri, o cümlədən iqtisadiyyat və dövlət idarəçiliyi sahələrində aparılan islahatlar barədə məlumat verib.

Bundan başqa, tərəflər beynəlxalq parlamentlərarası əməkdaşlıq qurumlarında qarşılıqlı dəstək praktikasının davam etdirilməsi, İsveçrə-Azərbaycan münasibətlərinin inkişafında parlament ölçüsünün rolunun gücləndirilməsi, eləcə də İsveçrə və Azərbaycan regionları arasında əməkdaşlıq əlaqələrinin qurulması imkanları ətrafında fikir mübadiləsi aparıblar.

# Ölkəmiz demokratik və hüquqi dövlət quruculuğu yolunu tutub

Noyabrın 5-də Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli ölkəmizdə səfərdə olan Qırğızıstan Baş prokurorunun müavini Cəmilə Camanbayevanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, görüşdə Ziyafət Əsgərov ölkəmizdə korrupsiyaya qarşı mübarizə ilə bağlı dövlət başçısı İlham Əliyevin qətiyyətli siyasi iradəsindən qaynaqlanan sistemli tədbirlərin görüldüyünü, mütərəqqi antikorrupsiya qanunvericiliyinin formalaşdırıldığını bildirib. Qeyd edilib ki, Avropa Şurasının "Korrupsiyaya görə cinayət-hüquqi məsuliyyət haqqında" və "Korrupsiyaya görə mülki-hüquqi məsuliyyət haqqında" konvensiyalarına, Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı Konvensiyasına qoşulan ölkəmizdə milli dövlətçilik ənənələrinə və müvafiq dünya standartlarının tələblərinə cavab verən qanunvericilik bazası formalaşdırılıb. "Korrupsiyaya qarşı mübarizə haqqında", "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlar və digər mühüm normativ hüquqi aktlar qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli demokratik və hüquqi dövlət quruculuğu yolunu tutan ölkəmizdə son dövrlərdə həyata keçirilən məhkəmə-hüquq islahatları, o cümlədən prokurorluğun fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, mütərəqqi normativ hüquqi bazanın yaradılması, müasir informasiya texnologiyaları üzrə qabaqcıl təcrübənin tətbiq olunması, şəffaf prosedurlara və ədalətli meyarlara əsaslanan yeni kadr siyasətinin reallaşdırılması ilə əlaqədar görülən işlər və qarşıda duran vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Qırğızıstan Baş prokurorunun müavini Cəmilə Camanbayeva Azərbaycanın prokurorluq və məhkəmə sistemlərinin müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirləri yüksək qiymətləndirib. O, iki qardaş ölkə arasında bu sahədə sıx əlaqələrin olmasını təqdirəlayiq hal kimi dəyərləndirib. Qonaq Azərbaycana bu səfərin təcrübə mübadiləsi baxımından çox faydalı olacağına və iki ölkənin müvafiq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə edib.

Söhbət zamanı hüquqi sahədə əməkdaşlıq üzrə geniş fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin deputatları Çingiz Qənizadə, Hikmət Məmmədov, Aydın Mirzəzadə və digərləri iştirak ediblər.

# *Elmar MƏMMƏDYAROV:* “Beynəlxalq hüquqa əsaslanan qlobal nizam prinsiplərinə riayət etmək problemlərin həlli üçün ən yaxşı yoldur”



Avropa İttifaqının (Aİ) “bir ölçü hamıya uyğundur” yanaşmasını tərk edərək Qonşuluq Siyasətinə yenidən baxış sərgiləməsi xoş bir addımdır. Aİ ölkələrin ehtiyac və istəklərinə əsaslanmalı olan fərqləndirmə və xüsusi hazırlanmış tərəfdaşlıq anlayışını əlavə etməyə çalışdı. Bu ölkələrin öz seçimləri olmalıdır, Aİ-nin seçimi yox. İndi Azərbaycan, Avropa İttifaqı ilə özünəməxsus və fərqlənən gündəliyi həyata keçirmək üçün Aİ-dən çoxsaylı fərqləndirmə yollarını gözləyir. Şərq Tərəfdaşlığının gələcək prosesini biz belə görürük.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər naziri Elmar Məmmədyarov Stokholmda “Şərq Tərəfdaşlığı üçün yeni siyasi baxış” mövzusunda yüksək səviyyəli nazirlər seminarında söyləyib.

Nazir deyib ki, hər bir tərəfdaşın iqtisadi inkişaf, geostrateji yerləşmə və regional təhdidlər üçün resursların təsiri altında formalaşan müxtəlif inkişaf strategiyaları və baxışları ola bilər. Məsələn, Azərbaycan Şərq tərəfdaşları arasında Aİ-nin ən böyük investorudur, lakin heç vaxt Şərq Tərəfdaşlığında “qabaqlayıcı” statusuna iddia etməyib.

Önəm verdiyimiz ümumbəşəri dəyərlər mütləq gündəliyimizdə qalacaq. Bir ölkə ki, digər ölkənin ərazilərinin 20 faizini işğal edib, əhalisinin 1 milyonundan çoxunu qaçqın və məcburi köçkünə çevirib, o ölkə özünü demokratik adlandıra bilməz.

Şərq Tərəfdaşlığı strukturlaşdırılmış dialoqu vaxtında həyata keçirilən bir çalışmadır. Ancaq burada Aİ Şərq Tərəfdaşlığı prosesinin cəlbedici və canlı olmasını istəyirsə, tərəfdaş ölkələrə daha yaxşı qulaq asmalıdır. Təhlükəsizlik sahəsində əməkdaşlıq böyük ehtimal ilə Aİ ilə qarşılıqlı dialoqumuzda önəmli bir ölçü olacaq. Azərbaycan kibertəhlükəsizlik, enerji infrastrukturunun təhlükəsizliyi, habelə radikallaşmanın, həll olunmamış münaqişələrin, zorakı ekstremizm və terrorizmin qarşısının alınması və onlara qarşı mübarizənin aparılması kimi hibrid təhdidlərdən yaranan təhlükəsizlik problemlərinin həllində səylərini müəyyənləşdirmək və genişləndirmək üçün Avropanın geniş Xəzər dənizi və Orta Asiyaya açılan qapısıdır.

Beynəlxalq hüquq və qayda-qanunlara əsaslanan qlobal nizam prinsiplərinə riayət etmək regionda problemlərin həlli və təhlükəsizlik problemlərinin aradan qaldırılması üçün ən yaxşı yoldur. Lakin Şərq Tərəfdaşlığını yeni yaranan təhdidlərə qarşı dayanıqlı və cavab verməyə qadir etmək üçün onun əsas öhdəliklərini yerinə yetirməliyik. On il əvvəl Praqada Şərq Tərəfdaşlığının əsasını qoyan Birgə Bəyannaməni qəbul etdik. Orada biz yekdilliklə Şərq Tərəfdaşlığının beynəlxalq hüquq prinsiplərinə əsaslanan öhdəliklər üzərində qurulacağına razılaşdıq. İşğal və Şərq Tərəfdaşlığının əsas prinsiplərindən sui-istifadə hallarına artıq dözə bilmərik. Ermənistan nəinki Azərbaycan ərazilərini işğal altında saxlayır, həm sözdə, həm də əməldə bu prosesi pozur və münaqişənin tezliklə sülh yolu ilə həllini tapmaq səylərini sarsıdır. 2013-cü ildə Avropa Parlamenti (AP) tərəfindən Avropa Qonşuluq Siyasəti ilə bağlı qəbul edilmiş qətnaməyə əsasən bir Şərq Tərəfdaşlığı ölkəsinin digərinin ərazilərini işğal etməsi Şərq Tərəfdaşlığının əsas prinsiplərini və məqsədlərini pozur. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul olunmuş 822, 853, 874, 884 saylı qətnamələrinə uyğun olmalıdır. Bundan əlavə, AP Ümumi Xarici və Təhlükəsizlik Siyasətinin illik icra hesabatlarında Aİ-nin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində bütün Şərq Tərəfdaşlığı ölkələrinin ərazi bütövlüyünə sadiqliyini bir daha təkrarlayır. Beləliklə, Şərq Tərəfdaşlığının növbəti onillik gündəliyində güclü təhlükəsizlik komponenti olmazsa, bu müddətdə onun Azərbaycan üçün əlavə dəyəri az olacaq.

Beləliklə, qeyd olunan məqamları nəzərə alaraq bildirmək lazımdır ki, Azərbaycan Şərq Tərəfdaşlığının bu günədək nə verdiyi və bundan sonra hara getdiyi barədə düşüncə mərhələsindədir. Şərq Tərəfdaşlığının növbəti onilliyi nə gətirə bilər, onun aləti və ya mexanizmi Azərbaycan üçün nə qədər cəlbedici olacaq, strukturlaşdırılmış bir dialoqun əvvəlki dialoq növündən fərqi necə olacaq. Bu cür suallar verdiyimiz və son 10 ildə Azərbaycanın Aİ ilə münasibətləri üçün Şərq Tərəfdaşlığının əlavə dəyərinin nə olduğunu düşünməyə vaxt ayırdığımız tamamilə aydındır. Şərq Tərəfdaşlığının genişləndirilməsi və ya onun institusional bazasının yaradılması barədə bəzi düşüncələr daxil olmaqla müxtəlif fikirlər eşidirik. Azərbaycan individual yanaşmaya üstünlük verir. Biz praqmatik və realist olmalıyıq.

Azərbaycan çox vaxt neft və təbii qazla əlaqələndirilir. Enerji qaynaqlarımızın əhəmiyyətinin yeni bir elementini təqdim edəcəyəm. Birincisi, təbii qazımız çirkləndirici kömürdən daha təmiz bir qalıq yanacağı molekuludur. İkincisi, təbii qazımız Aİ-nin ekoloji cəhətdən dost və enerji səmərəliliyini artırmaq kampaniyasında onun üçün ideal keçid yanacağı rolunu oynaya bilər. Bu, iqlim siyasətinin məqsədlərinə də aiddir. Beləliklə, Aİ-yə gedən qaz kəmərimiz Aİ-nin iqlim siyasətinin məqsədlərinə birbaşa töhfədir. Görürsünüz, bu həm ticarət, həm rabitə (infrastruktur), həm də ətraf mühit məsələsidir.

Bağlılıq Şərq Tərəfdaşlığında çoxtərəfli əməkdaşlığın aparıcı qüvvəsi olmalıdır. Bu gün o, sabitlik mənbəyi və tərəfdaş ölkələrdə dayanıqlılığı gücləndirmək üçün bir vasitədir. Bu mövzu sərmayələrin, maliyyə qurumlarının, özəl sektorun diqqətini cəlb edir. Bu, həmçinin ticarət, yaradıcı bir ticarət deməkdir, proteksionizm deyil. Aİ tərəfindən beynəlxalq çoxtərəfli təşəbbüsün - Avropa Bağlılıq Forumunun irəli sürülməsi Azərbaycanın və müxtəlif qitələrdə daha geniş bağlılıq məqsədlərinə çatmaq yolunda olan ölkələrin mühüm rolunu müəyyənləşdirir.

Bəlkə də Azərbaycan Aİ üçün böyük bir bazar deyil. Beləliklə, Azərbaycandan Aİ şirkətlərinə rəqabət çox deyil. Lakin xarici investorlarla müqavilələri milli qanun statusuna qaldıran məhz iqtisadiyyat və bazardır. İnvestorlar Azərbaycandakı öz kapitallarından və işlərindən rahatdırlar. Müqavilələrə hörmət etdiyimiz üçün qürur duyuruq. Müqavilələrin yüksək dərəcədə şəffaflığı var. Təbii sərvətlərimizlə dünyaya açıldığımız 1994-cü tarixli “Əsrin müqaviləsi” ilə bu işi bacardıq. Ölkəmizi Avrasiyanın xəritəsinə bir logistika mərkəzi kimi daxil etmək üçün yeni dövrdə yenidən bunu edəcəyik. Aİ-də və ya Şərq Tərəfdaşlığı bölgəsində başqa harada xarici investor gəlib 30-40 il eyni liberal maliyyə/investisiya rejimindən faydalana bilər? Bu, olduqca uzun müddətdir. Bu, böyük bir öhdəlikdir, həm də siyasi iradə tələb edir. Sabitlik vacibdir, hamı qazana bilər. Azərbaycan investorlara dost ölkədir. Bir çox Aİ iş adamı və investorunun bu məqsədlə Azərbaycanı seçməsi təsadüfi deyil. Əslində Aİ bizim bir nömrəli ticarət və investisiya tərəfdaşımızdır.

Şübhəsiz ki, fiziki qarşılıqlı əlaqə öz-özünə təmin olunmur, onların kommersiya baxımından təmin edilməsi eyni dərəcədə vacibdir. Bu məqsədlə, Bakı-Tbilisi-Qars dəmir yolu əlaqəsi ilə artan ticarəti təmin etmək üçün Azərbaycan Orta Asiya ölkələri ilə tariflərin birləşdirilməsi üzərində işləyir. Biz Aİ-nin bu regional magistral layihəni dəstəklədiyini və Aİ ölkələri ilə gələcək əlaqələrin perspektivini qiymətləndiririk. Avstriya, Almaniya, Macarıstan və digər Avropa İttifaqı ölkələrindən olan bir neçə böyük logistika şirkətinin Asiya ilə Avropa arasında yük daşınması üçün bizimlə birgə Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə etməkdə istəkli olmaları təəccüb doğurmur.

Prezident Tusk Azərbaycana son səfərində təsdiqlədi ki, Azərbaycanı nəqliyyat və logistika mərkəzinə çevirmək üçün böyük addımlar atılıb və ölkənin həm şimal, həm də cənub qonşularına olan ambisiyalarını qeyd etdi. Xəritədə öz adımızı belə qoyduq - Azərbaycan nəinki çoxmilyardlıq “Cənub qaz dəhlizi”nin təminatçısı, həm də Avropa ilə Asiyanın müxtəlif hissələri arasında bir neçə ticarət dəhlizini təşviq edən ölkədir. Ancaq bununla da dayanmırıq, ölkədə maliyyə, iqtisadi, sosial və ekoloji sabitliyi təmin etməklə daha çox investisiya üçün ilkin şərtləri həyata keçiririk. Dünya Bankının 2020-ci il üçün “Doing Business” hesabatında Azərbaycanın biznesə başlamaq baxımından 9-cu, kredit/maliyyə imkanlarına görə 1-ci yeri tutması təəccüblü deyil.

Kiçik və orta sahibkarlığın (KOS) inkişafı, ehtimal ki, davamlı iqtisadi inkişaf və vətəndaşlarımızın rifahının yüksəldilməsi üçün əməkdaşlığımızın təməl nöqtəsi olaraq qalacaq. Biznes mühitinin yaxşılaşdırılmasına yönəlmiş məqsədyönlü iqtisadi islahatlar, o cümlədən məhdud qiymət nəzarəti, mənfəətin geri qaytarılması və texnologiyanın ötürülməsinə qoyulan məhdudiyyətlərin aradan qaldırılması, milli və xarici investorlar arasında ayrıseçkiliyin olmaması, xarici valyuta ilə bağlı məhdudiyyətlərin olmaması və xarici investisiyalar üçün əvvəlcədən icazə verilməməsi Azərbaycanda KOS-lar üçün əlverişli şərait yaradır.

Avropa İttifaqının “ABAD” İctimai Birliyi ilə sıx əməkdaşlıq edərək bölgələrdə kiçik ailə biznesinə dəstəyi kənd yerlərində yerli potensialın artırılmasına çalışır, Azərbaycanda müasir və davamlı biznes modellərinin formalaşmasına kömək edir. Bu islahatlar öz bəhrəsini verməyə başladıqca mövcud işçi qüvvəsi ilə biznesin ehtiyacları arasındakı fərq böyük diqqətə layiqdir. Beləliklə, Aİ-nin gələcək illərdə peşə təhsili və işçi qüvvəsinin istedad portfelini gücləndirməsinə dəstəyini məmnuniyyətlə qarşılayacağıq.

Bizim prioritetimiz neft və qazdan kənar şaxələndirməni təmin etmək və bununla turizm, KOS inkişafı, logistika, yüksək texnologiya və kənd təsərrüfatına daha çox investisiya qoymaqdır.

İqtisadiyyatın rəqəmsallaşdırılması Şərq Tərəfdaşlığında rəqəmsal bazarların uyğunlaşdırılması üçün istifadə olunmamış potensialın böyük toplusunu təmsil edən Rəqəmsal Ticarət Mərkəzinin tətbiqi ilə tam sürətlə davam edir. Aİ şirkətləri rəqəmsal xidmətlərin mərkəzləşdirilməsini və bütün dövlət qurumlarının informasiya sistemlərinin vahid elektron platformaya tam inteqrasiyasını təmin edən “ASAN xidmət”in səmərəliliyini tanıdılar. Digər tərəfdən, bu sektorda davam edən islahatlar müvafiq olaraq vətəndaşların dövlətə etimadının ilkin şərtlərinə xidmət edən düzgün idarəetməni yaxşılaşdırır.

# Görkəmli şərqşünas alim Aida İmanquliyevaya həsr edilmiş biblioqrafiya və elektron məlumat bazasının təqdimatı olub

Noyabrın 5-də M.F.Axundzadə adına Milli Kitabxanada Azərbaycanın görkəmli şərqşünas alimi, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, filologiya üzrə elmlər doktoru, professor Aida İmanquliyevanın anadan olmasının 80 illik yubileyi münasibətilə “Aida İmanquliyeva. Biblioqrafiya” kitabının və “Aida İmanquliyeva-80” adlı elektron məlumat bazasının təqdimatı olub.





AZƏRTAC xəbər verir ki, Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə reallaşan təqdimat mərasimində hökumət və dövlət üzvləri, habelə tanınmış elm adamları iştirak ediblər.

Milli Kitabxananın direktoru Kərim Tahirov çıxış edərək görkəmli alim Aida İmanquliyevanın həyat və yaradıcılığından söz açıb. Bildirib ki, 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olan Aida İmanquliyeva 1957-ci ildə Bakı şəhəri 132 nömrəli orta məktəbi qızıl medalla bitirib və Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə qəbul olunub. Bildirib ki, iyirmi yeddi yaşında namizədlik dissertasiyasını müdafiə edən Aida İmanquliyeva Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Şərqşünaslıq İnstitutunda əmək fəaliyyətinə başlayıb. İstedadı, zəhmətsevərliyi hesabına kiçik elmi işçidən baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və nəhayət, direktor vəzifəsinədək yüksəlib. Qeyd edilib ki, onun dərin nəzəri bilikləri, analitik təfəkkürü, zəngin mütaliəsi, bir neçə Şərq və Qərb dillərini bilməsi apardığı tədqiqatların uğurunu şərtləndirən əsas amillər idi. Aida xanım elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrlar hazırlanmasına böyük diqqət yetirib. O, rəhbəri olduğu Ərəb filologiyası şöbəsində qısa müddətdə 10-dan çox namizədlik dissertasiyası müdafiə edilib.

“Aida xanımın daha bir xidməti cəmiyyət üçün layiqli övladlar böyütməsi olub. Həyatını elmə həsr edən böyük qızı Nərgiz Paşayeva M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentidir. Bu ailənin ikinci qızı - Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi bu gün dövlətimiz və dövlətçiliyimiz üçün çoxsaylı işlər görür”, - deyə K.Tahirov söyləyib.

Sonra görkəmli alimin həyat və yaradıcılığından bəhs edən sənədli film nümayiş edilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova görkəmli alimin yaradıcılığından söz açıb, kitablarının əhəmiyyətindən danışıb. Vurğulayıb ki, ərəbşünaslıq elmi üzrə ilk qadın filologiya elmləri doktoru olan Aida İmanquliyeva haqqında belə bir nəşrin ərsəyə gəlməsi olduqca sevindirici haldır. Biblioqrafiyanın alimin həyat və yaradıcılığı haqqında əsl mənbə olduğunu deyən H.Hüseynova qeyd edib ki, bu nəşr Aida İmanquliyevanın ədəbi irsinin dərindən öyrənilməsi baxımından önəm kəsb edir.

“Belə nəşrlərin cəmiyyətə təqdim olunması onu göstərir ki, ömrünü elmə həsr edən görkəmli alimlərin yaradıcılığı hər zaman diqqət mərkəzindədir. Aida İmanquliyeva da belə ziyalılardandır. Onun yaradıcılığında ayrı-ayrı mədəniyyətlərdə qadına münasibət və qadın hüquqları mövzusu xüsusi yer tutur. Bu baxımdan onun əsərləri Azərbaycan genderşünaslığı üçün də çox əhəmiyyətlidir. A.İmanquliyevanın elmi yaradıcılığı ilə yaxından tanış olduqda Qərb və Şərq mədəniyyətini, ümumiyyətlə, dünyada mövcud olan ictimai-fəlsəfi fikir sistemlərini açıq-aşkar görmək mümkündür. Aida xanım yorulmaz elmi fəaliyyəti ilə yanaşı, qayğıkeş ana və gözəl insan obrazı olan ziyalı kimi tanınıb. Görkəmli alimin böyük çoxşaxəli, zəngin irsi təkcə onun yaradıcılığına aid olmayıb, eyni zamanda, ailəsinin, övladlarının varlığında da yaşayıb. Onun övladları bu gün vətənpərvər, xeyirxah ziyalı kimi mənsub olduqları nəslin gözəl ənənələrini yaşadaraq Azərbaycanın ictimai-siyasi həyatında xüsusi fəaliyyətləri ilə fərqlənirlər”, - deyə H.Hüseynova söyləyib.

Unudulmaz alimin zəngin yaradıcılıq irsinin təbliğindən söz açan AMEA-nın İctimai Elmlər Bölməsinin akademik katibi, akademik Nərgiz Axundova deyib ki, Aida İmanquliyevanın gənc yaşlarından elmə olan sevgisi və bu yöndə atdığı addımlar onu görkəmli alimə çevirib. Qeyd edib ki, Şərq və Qərb ədəbiyyatının sintezi alimin yaradıcılığının mərkəzində dayanır: “Biz Aida xanımın məruzələrini hər zaman diqqətlə dinləyirdik. Bizim ərəb ədəbiyyatına olan marağımızın səbəbkarı Aida xanım idi. Onun yaradıcılığına hər zaman müraciət ediləcək. Aida xanımın elmi fəaliyyəti bu gün də maraq doğurur, gələcəkdə də belə olacaq”.

“Aida İmanquliyeva. Biblioqrafiya” kitabının “Ön söz”ünün müəllifi AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva vurğulayıb ki, görkəmli alim dəfələrlə Azərbaycan şərqşünaslıq elmini respublika hüdudlarından kənarda da təmsil edib. Diqqətə çatdırıb ki, Aida İmanquliyeva elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrların hazırlanmasını daim diqqətdə saxlayıb. Təsadüfi deyil ki, institutun Ərəb filologiyası şöbəsinə başçılıq etdiyi qısa müddətdə onun bilavasitə səyləri ilə 10-dan artıq namizədlik dissertasiyası müdafiə edilib.

G.Baxşəliyeva vurğulayıb ki, dünya şöhrətli şərqşünaslarla adı bir arada çəkilən Aida İmanquliyevanın tədqiqatlarının sahəsi ərəb filologiyası və ya məhcər ədəbiyyatı olaraq qeyd edilir. Ancaq Aida xanımın araşdırdığı məsələlər şərqşünaslığın və filoloji düşüncənin hüdudlarına sığmır. Alimin tədqiqatları nəticəsində bütün dövrlər üçün aktuallığını saxlayan mütləq bir həqiqət müəyyənləşib.

Unudulmaz alimin insani keyfiyyətlərindən söz açan natiq onunla bağlı xatirələrini bölüşüb, “Aida İmanquliyeva. Biblioqrafiya” kitabının ərsəyə gəlməsində zəhməti olan hər kəsə təşəkkür edib.

Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin dekanı, professor Elxan Əzizov çıxış edərək alimin həyat və yaradıcılığından, elmə verdiyi töhfələrdən, yorulmaz elmi axtarışlarından bəhs ediblər.

Tədbir çərçivəsində gənc şair Sevindik Nəsiboğlu Aida İmanquliyevaya həsr etdiyi şeiri səsləndirib.

Sonra “Aida İmanquliyeva-80” adlı elektron məlumat bazası təqdim olunub.

Qeyd edək ki, Milli Kitabxananın “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından hazırladığı bu biblioqrafiyada, ilk növbədə, “Aida İmanquliyevanın həyat və yaradıcılığının əsas tarixləri”, “Aida İmanquliyevanın əsərlərində müdrik deyimlər”, “Görkəmli şəxsiyyətlər Aida İmanquliyeva haqqında” bölmələri yer alır. Biblioqrafik vasitədə alimin əsərləri - kitabları, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş əsərləri, elmi-tənqidi və publisistik məqalələri, tərcümələri, habelə onun həyat və yaradıcılığını əks etdirən 1964-2019-cu illəri əhatə edən kitablar, dissertasiyalar, məqalələr, rus və başqa dillərdə çap olunmuş materiallar toplanıb. İlk dəfə olaraq “Aida İmanquliyeva dünya kitabxanalarında” və “Aida İmanquliyeva dünya universitet kitabxanalarında” bölmələri də biblioqrafiyaya daxil edilib. Kitabda ədəbiyyat xronoloji qaydada qruplaşdırılaraq əlifba sırası gözlənilib. Biblioqrafiya şərqşünas, ədəbiyyatşünas alimlər və kitabxanaçı-biblioqraflar və geniş oxucu auditoriyası üçün nəzərdə tutulur.

# Müstəqil siyasət, dərin islahatlar, yüksələn reytinq

*Əvvəli 1-ci səh.*

Qeyri-neft ixracı 15,5 faiz artmaqla 1,4 milyard dollara çatıb, sənaye məhsullarının ixracında 13,1 faiz, kənd təsərrüfatı və emalı məhsullarının ixracında 18,6 faiz artıma nail olunub. Bu dövrdə 186 ölkə ilə ticarət əlaqələri aparılıb.

## İki sosial paket - 4,2 milyon vətəndaş

2019-cu ilin sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacağını bəyan edən Prezidentin cari il ərzində təqdim etdiyi iki sosial paket isə əhalinin maddi durumunun yaxşılaşmasına xidmət edir. Bu sosial paketlər həyata keçirilən siyasətin yüksək səviyyədə reallaşmasını, ölkədə sosial inkişaf, sosial rifahın yüksəldilməsi istiqamətində bir-birinin ardınca inqilabi xarakterli addımların atılmasını təmin etdi. Təkcə bu il minimum əməkhaqqı və sosial müavinətlər iki dəfə, minimum pensiya 70 faiz artdı. Ümumilikdə iki sosial paketin əhatə dairəsi 4,2 milyon vətəndaşı əhatə etdi.

Bütün bunları şərtləndirən ən başlıca amil əlbəttə ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan addımların bəhrəsidir. Yəni ölkənin artan iqtisadi qüdrəti, aparılan ciddi iqtisadi islahatlar, şəffaflıqla bağlı görülən işlərin büdcə daxilolmalarını artırması sosial islahatların dərinləşməsinə real zəmin yaratdı.

Bununla yanaşı, həyata keçirilən kompleks islahatlar, möhkəm iqtisadi təməl 2020-ci ildə inkişafın davamlılığına əsas yaradır. Belə ki, ÜDM-in real artımının 3 faiz, o cümlədən neft sektoru üzrə 1,6 faiz, qeyri-neft sahəsində isə 3,8 faiz təşkil edəcəyi proqnozlaşdırılır. Gələn il qeyri-neft sənayesi 8,8 faiz, kənd təsərrüfatı 4,8 faiz artacaq. Proqnozlara görə, 2020-ci ildə ÜDM-də qeyri-neft sektorunun payı 65 faizi ötəcək. 2020-ci ildə əsas kapitala investisiya qoyuluşunun 18,3 milyard manat təşkil edəcəyi gözlənilir. Bunun 12,2 milyard manatı daxili, 6,1 milyard manatının isə xarici investisiyaların payına düşəcəyi proqnozlaşdırılır.

Sonuncu müşavirədə qarşıdakı dövr üçün mühüm vəzifələri müəyyənləşdirən cənab Prezident ölkədə istifadə olunmayan kifayət qədər ehtiyatların olduğunu və bu ehtiyatların aşkar edilməsinin vacibliyini də vurğulayaraq bununla bağlı ciddi göstərişlər verdi. Bəyan etdi ki, bu proseslər həyata keçirilməlidir: “Çox güclü siyasi iradə ortaya qoyulub. Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz”.

Hazırda aidiyyəti dövlət qurumları tərəfindən cənab Prezidentin verdiyi tapşırıqların icrası ilə əlaqədar olaraq əlavə iqtisadi artım mənbələrinin iqtisadi dövriyyəyə cəlb edilməsi, işgüzar fəallığın daha da artırılması, iqtisadi subyektlərin əlavə dəyərin yaradılmasında iştirakının genişləndirilməsi üçün tədbirlərin görülməsi istiqamətində araşdırma və təhlillər aparılır. Bütün bunlar isə onu deməyə əsas verir ki, qarşıdakı illərdə ölkə iqtisadiyyatının daha da şaxələnməsi istiqamətində önəmli addımlar atılacaq.

Göründüyü kimi, müstəqilliyin bərpasından ötən 28 ildə Azərbaycan həqiqətən iqtisadi sahədə böyük uğurlara imza atıb. Təkcə iqtisadiyyata yatırılan 270 milyardlıq investisiyanı və 50 milyard dollara yüksələn valyuta ehtiyatlarını göstərmək yetərlidir. Hələ 2004-cü ildə regionların sosial-iqtisadi inkişafına dair I Dövlət Proqramının icrasına başlayarkən Azərbaycan 1,8 milyard dollar valyuta ehtiyatlarına sahib idi. 15 ildə bu ehtiyatlar 27-28 dəfə artıb.

## Möhkəm iqtisadi təməl, ən islahatçı ölkə

Bir vaxtlar iqtisadi müstəqilliyini təmin edə bilməyən, xaricdən aldığı yardımlarla keçinən, zəngin təbii ehtiyatları ola-ola əhalisinin enerjiyə olan tələbatını idxal hesabına ödəyən Azərbaycan bu gün reallaşdırdığı neft-qaz layihələri ilə Avropanın enerji təhlükəsizliyinin təminatçısıdır. Davos Ümumdünya İqtisadi Forumunun hesabatına istinad edərək deyə bilərik ki, elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir.

Azərbaycan, eyni zamanda bir sıra ölkələrin enerji təchizatçısıdır. Asiya və Avropa qitələri arasında körpü rolu oynayan Azərbaycan açıq dənizə çıxışı olmayan ölkə kimi bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq hazırda digər mühüm layihələr - Cənub-Qərb və Şimal-Qərb layihələrinin gerçəkləşdirilməsinə öz töhfəsini verir.

Beynəlxalq təşkilatlardan, böyük dövlətlərdən aldığı yardımlara görə az qala forposta çevrilmək təhlükəsi ilə üzləşən ölkəmiz əldə etdiyi iqtisadi uğurlar hesabına tam müstəqil siyasət yürüdür.

Prezidentin dərin sosial-iqtisadi islahatları, Azərbaycanın əldə etdiyi nailiyyətlər beynəlxalq aləmdə təqdir olunur. Dünya Bankının 2020-ci il üzrə “Doing Business” hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsinə görə isə 5-ci yerdədir.

Əlbəttə ki, bu, hər ölkəyə nəsib olmayan tarixi zəfərdir. Bu uğurları dəyərləndirərkən cənab İlham Əliyev vurğulayıb ki, Azərbaycanın gələcəyə ancaq inkişaf yolu ilə getməsi üçün bütün şərtlərin mövcudluğu ölkənin bundan sonra da sabitlik, inkişaf və tərəqqi yolu ilə addımlayacağını təsdiqləyir. Prezidentin söylədiyi kimi, əldə edilən iqtisadi dividendlər onu deməyə əsas verir ki, bu gün xalqı narahat edən bütün problemlər, yəni infrastruktur, sosial ədalətlə bağlı olan problemlər öz həllini mütləq tapacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Prezident İlham Əliyevin islahatlar strategiyası:

## Respublika Ağsaqqallar Şurasının, "Azərbaycan" qəzetinin






**Müstəqilliyinin bərpasının 28-ci ilini geridə qoyan Azərbaycan özünün sürətli inkişaf, möhtəşəm quruculuq, güclü dövlətçilik dövrünü yaşayır. Əldə edilən bütün nailiyyətlər Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolunun və Prezident İlham Əliyevin fədakar fəaliyyətinin nəticələridir.**

**Bu günlərdə Respublika Ağsaqqallar Şurasının, "Azərbaycan" qəzetinin və Lənkəran Şəhər İcra Hakimiyyətinin Lənkəranda birgə keçirdikləri bölgə üzrə konfransı da Azərbaycanda gedən inkişaf proseslərinə, Prezident İlham Əliyevin islahatlar strategiyasına, bu islahatların gedişinə həsr olunmuşdu. Artıq ölkəmizdə davamlı inkişafın yeni keyfiyyət mərhələsi başlanılıb. Tədbirin iştirakçıları olan ağsaqqallar və gənclərimiz Prezident İlham Əliyevin yeni islahatlar strategiyası, ölkəmizin davamlı inkişafının yeni keyfiyyət mərhələsinə qədəm qoyması ilə bağlı fikirlərini bildirdilər.**

**Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Lənkəran şəhərində ucaldılmış abidəsi önünə gül qoydular, xatirəsini ehtiramla yad etdilər.**



*Konfransı giriş sözü ilə* ***Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin komissiya sədri Fəttah HEYDƏROV*** *açdı. Müstəqil Azərbaycanın şərəfli, mənalı, uğurlu dövrünü yaşadığını qeyd edən Fəttah Heydərov vurğuladı ki, istər ölkəmizin yüksəlişi, istər beynəlxalq səviyyədə qazanılan hər bir nailiyyət Azərbaycanın Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi yolla, İlham Əliyevin rəhbərliyi ilə inamla addımlayıb inkişaf etdiyini təsdiqləyir:*

- Respublikamızın tərəqqisi bütün ölkə ictimaiyyəti tərəfindən sevinc hissi ilə qarşılanır. Təbii ki, bu tədbirimizin iştirakçısı olan ölkə ağsaqqalları və gənclər Prezidentin apardığı siyasəti həmişə dəstəkləyib, onun ətrafında səfərbər olublar. Bu görüşümüzün məqsədi də ölkəmizdə gedən inkişaf prosesləri barədə müzakirə aparmaq, bu yolda ağsaqqalların və gənclərin roluna nəzər salmaqdır.

Ağsaqqallar bilirlər ki, Heydər Əliyev 1969-cu ildə rəhbərliyə başlayanda Azərbaycan 15 respublika içərisində ən axırıncı yerlərdən birini tuturdu. Ulu Öndərin sayəsində Azərbaycanda yeni həyat başladı. Onun müdrikliyi, insanların öz vətəninə, torpağına, Azərbaycan adına yaraşan fəaliyyəti nəticəsində Azərbaycan 15 respublika içərisində tanındı, fərqləndi. Məhz Azərbaycanın yüksəlişinin nəticəsi idi ki, Heydər Əliyev 1982-ci ildə SSRİ rəhbərliyinə irəli çəkildi. Heydər Əliyevin Moskvaya getməsi Azərbaycana daha çox xeyir verməyə başladı. Azərbaycanın problemlərinin həlli daha da asanlaşdı.

Eyni zamanda Heydər Əliyev dünyada tanınmış bir şəxsiyyətə çevrildi. Sovetlər İttifaqının rəhbərləri içərisində onun işıqlı siması, məsələlərin həllinə münasibəti Heydər Əliyevi dünyada tanıtdı. Bunun məntiqi nəticəsi olaraq Heydər Əliyevin mənsub olduğu Azərbaycanın adı da dünyada layiqincə tanınmağa başladı.

Aradan ötən illər bizə bu tarixin əzəmətini, möhtəşəmliyini tam mahiyyəti ilə anlamaq, Heydər Əliyev fenomeninin milli dövlətçilik qarşısındakı əvəzsiz xidmətlərini mahiyyəti üzrə daha dərindən dərk etmək imkanı verir. Ulu Öndərin ölkəyə rəhbərlik etdiyi dövrlərdə xalqın minilliklərlə intizarında olduğu arzular, niyyətlər, məramlar gerçəyə çevrilmiş, milli dövlətçilik ənənələrinin formalaşması prosesi sürətlənmişdir. Bu zaman kəsiyi Azərbaycanda müstəqilliyin əbədi, daimi və dönməz xarakter alması, sabit dövlət quruluşunun yaranması, xalqın təbii və konstutision haqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması kimi misilsiz tarixi prosesi əhatələyir.

Ona görə biz belə görüşlərdə Heydər Əliyevin xatirəsini ehtiramla anırıq. Heç vaxt unuda bilmərik ki, Heydər Əliyevin rəhbərliyi illərində ermənilər Azərbaycana qarşı torpaq iddiası ilə çıxış edə bilmədilər. Bir qarış da torpağımızı zəbt edə bilmədilər. Azərbaycan xalqına düşmən kəsilən, Heydər Əliyevi gözü götürməyən Qorbaçovun paxıl niyyətləri nəticəsində Heydər Əliyev vəzifəsindən istefa verməli oldu.

Azərbaycanın ovaxtkı rəhbərliyi Heydər Əliyevə qarşı ədalətsiz davrandı. Onun Bakıya qayıtmasına imkan vermədi. Ulu Öndər 1990-cı ilin iyul ayında Naxçıvana gəldi. O, heç bir vəzifə uğrunda mübarizə aparmırdı. Heydər Əliyev Naxçıvanda xalqla birlikdə yalnız blokadada olan Naxçıvanın azadlığı uğrunda mübarizə apardı. Yenə də xalqın təkidi ilə seçkilərə qatıldı. Naxçıvan Ali Sovetinə seçkilərdən sonra ilk iclasda Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın üçrəngli bayrağı ucaldıldı. "Sovet" və "sosialist" sözləri Naxçıvanın adından çıxarıldı. Bütün bunlar inqilabi hadisələr idi. O zaman Heydər Əliyev heç bir vəzifə sahibi deyildi. Amma o, uzaqgörən, müdrik siyasətçi kimi böyük idrak sahibi idi. O, böyük bir xalqın gələcəyini düşünə bilən şəxsiyyət idi ki, bu addımı atdı. Sonrakı fəaliyyəti dövründə Heydər Əliyev Naxçıvanı qorudu, xilas etdi, ermənilərin Naxçıvanla bağlı planlarını alt-üst etdi.

Siz təsəvvür edin. SSRİ-nin dağıldığı dövrdə 15 pespublika içərisində yalnız Azərbaycan işğalla üzləşdi. Ermənilər o vaxt Azərbaycan rəhbərliyində təmsil olunan iqtidarların qətiyyətsizliyindən, ölkədəki siyasi böhrandan, hakimiyyət çəkişmələrindən istifadə edib torpaqlarımızı işğal etdilər.

Hələ sovet hakimiyyəti dövründə Azərbaycanı tənəzzüldən inkişaf yoluna çıxaran Heydər Əliyev müstəqilliyimizin bərkimədiyi 1993-cü ildə də öz yeni missiyasını böyük uzaqgörənliklə yerinə yetirdi. Müdrikliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və dəyanəti ilə müstəqilliyimizi qorudu. Ulu Öndərin bilavasitə rəhbərliyi altında, onun dühası, qətiyyətli siyasəti və dövlətçilik təcrübəsi nəticəsində Azərbaycanın dövlət müstəqilliyinin etibarlı əsasları yaradıldı. Ona görə Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidməti budur ki, o, ən kəskin və ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycanın dövlətçiliyini qorudu, ölkəni parçalanmaq təhlükəsindən xilas etdi. Bu gün xalqımızın bəhrəsini gördüyü uğurlu neft strategiyasının müəllifi Heydər Əliyev oldu. Eyni zamanda Heydər Əliyev hər bir sahə üzrə islahatın təməlini qoydu. Böhran həddində olan iqtisadiyyatımızda, sənayedə uğurlu islahatlar nəticəsində tərəqqiyə doğru inamlı dönüş yarandı. Hüquqi dövlət quruculuğu həyata keçirildi. Postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda effektli aqrar islahatlar aparıldı. Beləliklə, Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı bu gün uğurları ilə qürur duyduğumuz Azərbaycan dövlətinin yaranması ilə nəticələndi.

Bu gün Prezident İlham Əliyevin müəllifliyi ilə Azərbaycanın möhtəşəm inkişaf salnaməsinin parlaq səhifələri yazılır. Heydər Əliyevin strateji inkişaf kursunu müasir mərhələyə uyğun zənginləşdirən dövlət rəhbərinin yürütdüyü məqsədyönlü siyasətin uğurları Azərbaycanın şanlı tarixinə çevrilir. Cəmiyyət dinamik inkişaf edir, müasir dünyada gedən proseslərə uyğun olaraq Azərbaycanın sosial-iqtisadi həyatında, insanların yaşayış tərzində, idarəçilikdə müvafiq dəyişikliklər həyata keçirilir.

Bütün bunlar göstərir ki, dövlətimizin qurucusu Heydər Əliyevin həyata keçirdiyi siyasət bu gün uğurla davam etdirilir. Ulu Öndər 16 ildir ki, haqq dünyasına qovuşub. Lakin Heydər Əliyevin dühası, ideyaları yaşayır, xalqımızı yeni-yeni qələbələrə, daha yüksək zirvələrə aparmaqda davam edir. Bir neçə gün əvvəl müstəqilliyimizin bərpasının 28-ci ildönümünü də biz dövlətçilik tariximizin parlaq səhifələrini təşkil edən olduqca möhtəşəm nailiyyətlərlə qeyd etdik. Bəli, bu gün Azərbaycan bölgənin lideri, kosmik klubun üzvü, beynəlxalq enerji təhlükəsizliyində aparıcı dövlət, dünyada söz sahibidir. Şübhə yoxdur ki, yaşadığımız XXI əsrdə Azərbaycan bu yolla inamla irəliləyəcək, Heydər Əliyevin layiqli davamçısı, hörmətli Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edəcək, güclənəcək və nailiyyətlərinin miqyasını daha artıracaq.

Hazırda ölkədə mühüm islahatlar aparılır. Bu islahatların uğurlu nəticələri ölkənin iqtisadi-sosial həyatında yaxından duyulur. Prezident İlham Əliyevin hər bir sahədə inkişafa nail olmaq üçün keçirdiyi islahatlar uğurlu nəticələr verməklə Azərbaycanın dinamik yüksəlişinə səbəb olur. Bu siyasət 2019-cu ilin əvvəllərindən olduqca mühüm nailiyyətlərlə əlamətdardır və görünən odur ki, respublikada həyata keçirilən islahatlar yeni mərhələyə qədəm qoyur. Bu baxımdan artıq yarısı geridə qalan 2019-cu ilin iqtisadi mənzərəsi Azərbaycanın qarşısına qoyduğu hədəflərə doğru inamla irəliləyən bir ölkə oduğunu nümayiş etdirir. Bu dövrün iqtisadi statistikası İlham Əliyevin həyata keçirdiyi inkişaf kursunun praktikada özünü tam doğrultduğunu ortaya qoyur.

Bu gün bu tədbirdə gənclərin ağsaqqallarla bir yerdə iştirakında da çox böyük məna var. Azərbaycanda istedadlı, savadlı, müasir dünyagörüşlü, əxlaqi keyfiyyətləri ilə digər xalqlara nümunə ola bilən gənclər ordusu formalaşıb. Bizim gənclərimiz təkcə Azərbaycanda deyil, digər ölkələrdə də təhsil alır, dövlətimizin, xalqımızın adını daim ucaldırlar. Belə bir şərait ona görə yaranıb ki, Azərbaycanda həyata keçirilən siyasət gənclərin öz bilik və bacarıqlarını realizə etmələrinə geniş imkanlar formalaşdırıb. İndiyədək respublikamızda gənclərlə iş sahəsində görülən işlər, bu istiqamətdə həyata keçirilən mükəmməl dövlət siyasəti gəncliyin inkişafına böyük təkan verib, onun cəmiyyətdə özünü təsdiq etməsində böyük rol oynayıb. Gənclərimiz beynəlxalq miqyasda cərəyan edən ictimai-siyasi proseslərdə də yaxından iştirak etməklə həm dünyaya inteqrasiya olunub, həm də ölkəmizi tanıdıb. Azərbaycan gəncləri bundan sonra da dövlət siyasətindən layiqincə yararlanacaq, layiqli vətəndaşlar kimi cəmiyyət həyatının bütün sahələrində fəallıq göstərəcək və bununla da onlara bəslənən etimadı hər sahədə doğruldacaqlar.

Ölkənin gələcəyi üçün siz gənclərin üzərinə şərəfli məsuliyyət düşür. Siz bu işdə Heydər Əliyev ideyalarına, Ulu Öndərin müəyyən etdiyi yolun davamçılarının, ağsaqqalların təcrübəsinə əsaslanmalısınız.

Azərbaycan daha da inkişaf etməlidir və bu yüksəlişdə hər bir vətəndaşın, o cümlədən ağsaqqalların və xüsusən gənclərimizin rolu mühümdür. Biz bu yolda İlham Əliyevin ətrafında daha sıx səfərbər olmalıyıq.

*Prezident İlham Əliyevin böyük uğurla həyata keçirdiyi islahatların regionların sosial-iqtisadi və mədəni həyatına da yeni nəfəs verdiyini deyən* ***Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh QARAŞOV*** *qeyd etdi ki, hər bir lənkəranlı bu islahatlar kursunun bəhrələrini özünün gündəlik həyatında, ailəsində, təhsilində, yaşadığı şəhərin, qəsəbənin, kəndin simasında aydın görür, bundan qürur duyur:*

- Cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə getdikcə sürətlənən bu inkişaf proseslərində Lənkəran həmişə ölkədə öncül yerlərdən birini tutub. 2003-cü ildən bəri dövlət başçısının 1 dəfə Baş Nazir, 12 dəfə isə Prezident kimi rayonumuza ardıcıl səfərləri və bu səfərlər zamanı çoxlu sayda mühüm sosial əhəmiyyətli obyektlərin açılışında şəxsən iştirak etməsi, sakinlərlə mehriban, səmimi görüşləri lənkəranlılar üçün unudulmaz xoş xatirəyə çevrilib.

Lənkəran respublikamızın cənub bölgəsində, çox əlverişli coğrafi mövqedə yerləşir. Hələ qədim zamanlardan bu yer bölgənin iqtisadi və mədəni mərkəzi kimi tanınmış, tarixi İpək yolu üstündə yerləşdiyindən daim inkişaf edib və ətraf bölgələrin də inkişafında əhəmiyyətli rol oynayıb. Lakin burada yaşayan insanlar yaxşı bilirlər ki, Lənkəranın zamanına görə ən şöhrətli dövrü ilk növbədə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin qayğısı ilə keçən əsrin 70-80-ci illərində Lənkəran hərtərəfli inkişaf edib, geridə qalmış bir əyalətdən güclü aqrar-sənaye rayonuna çevrilib, təbii gözəlliyinə görə isə "cənub mirvarisi" adlandırılıb. İndi Lənkəran cənub bölgəsinin iqtisadi rayonunun mərkəzi olmaqla beynəlxalq əhəmiyyətli şəhərdir. Lənkəran Türkiyənin İsgəndərun, ABŞ-ın Kaliforniya statının Monterey və İtaliyanın Çerveteri şəhərləri ilə qardaşlaşma əlaqələri saxlayır.

Beynəlxalq əhəmiyyətli Şimal-Cənub nəqliyyat dəhlizinə daxil olan yeni Ələt-Astara magistral avtomobil yolunun rayonun ərazisindən keçməsi onun şöhrətini daha da artırıb. Lənkəranda bütün bölgə üçün müstəsna əhəmiyyəti olan beynəlxalq hava limanı fəaliyyət göstərir. Buradan xarici ölkələrə təyyarə reyslərinin açılması, dünya və Avropa səviyyəli, beynəlxalq əhəmiyyətli mədəni-kütləvi və idman tədbirlərinin, hətta Avropa İttifaqının yaranma günü - Şuman gününün qeyd olunduğu mərasimin keçirilməsi cənab Prezidentin regionların inkişafına göstərdiyi diqqətin parlaq sübutudur.

Ötən dövr ərzində qeyri-neft sektorunun sürətli inkişafı istiqamətində görülən işlər hesabına ölkəmizin digər regionlarında olduğu kimi, Lənkəranda da sosial-iqtisadi inkişaf dinamik şəkil alıb, rayonun iqtisadi imkanları artıb. Məhz cənab Prezidentin davamlı diqqəti ilə həyata keçirilmiş iri investisiya tutumlu layihələrin icrası rayonun simasını tamamilə dəyişib, onu iqtisadi cəhətdən güclü və turizmin inkişafı baxımından da perspektivli məkan kimi tanıtdırıb. Artıq rayonda güclü turizm infrastrukturu yaradılıb. Sahibkarlığın inkişafına verilən dəstək, iş adamlarına yaradılan əlverişli şərait hesabına rayonda turizm potensialı getdikcə genişlənir.

Zəngin fauna, flora və təbii ehtiyatları ilə zəngin olan Lənkəranda kurort və turizmin inkişafı üçün geniş imkanlar var. Xəzər dənizi və onun sahillərində müalicəvi əhəmiyyətli qara qumlu çimərliklər, müalicəvi termal sular, sərin bulaqlar, relikt və endemik bitki örtüklü sıx meşələr və dağlar, Qızılağac və Hirkan Milli parkları, qədim tarix, mədəniyyət abidələri, spesifik yerli mətbəx burada turizmin inkişafına geniş imkanlar verir. Turizmin inkişafı nəticəsində yaradılmış infrastruktur və xidmət sahələri əhalinin məşğulluq problemlərinin həllində də mühüm rol oynayır.

Rayonda fəaliyyət göstərən "Qafqaz Sahil", "Palmalife", "Lüks Lənkəran", "Xan Lənkəran", "Şah Saray" hotel kompleksləri, "Bəşəru", "Palıdlı Sahil", "Dörd Fəsil" istirahət mərkəzləri, "Mandarin" uşaq-əyləncə mərkəzi və digər göz oxşayan turizm obyektləri təkcə yerli turistlərin deyil, xarici turistlərin də diqqətini cəlb edir.

2017-ci ildə cənab İlham Əliyevin açılışında iştirak etdiyi 5 ulduzlu "Xəzər Palace" hotel kompleksi, 2018-ci il oktyabrın 15-də, prezidentliyinin 15 illiyinin tamam olduğu gündə təqdimatında iştirak etdiyi "İstisu" Sağlamlıq və İstirahət Mərkəzi, yeni Olimpiya İdman Kompleksi nəinki Lənkəranda, eləcə də regionda ən böyük turizm obyektləridir. Müqayisə üçün deyim ki, əgər 2003-cü ildə rayona cəmi 1000 nəfər turist gəlmişdisə, 2018-ci ildə bu rəqəm 23 min 128 nəfər təşkil edib. Onların da 15 faizi əcnəbi turistlərdir.

Ötən dövr ərzində rayonda geniş miqyasda tikinti-abadlıq və mədəni quruculuq işləri görülüb, yeni sosial obyektlər, istehsal müəssisələri inşa edilib, infrastruktur layihələr icra olunub, yeni iş yerləri açılıb. Rayonda sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı cənab Prezident tərəfindən 16 sərəncam imzalanıb və vaxtında icra olunub. Sosial-iqtisadi inkişafın sürətlənməsi hesabına 2018-ci ildə rayonda ümumi məhsul buraxılışı 2003-cü ilə nisbətən 7,3 dəfə artaraq 448 manata, kənd təsərrüfatı məhsulları 3,4 dəfə artaraq 105 milyon manata, sənaye məhsulu istehsalı 7,9 dəfə artaraq 39 milyon manata çatıb. Əsas kapitala yönəldilmiş investisiyalar 20,3 dəfə artaraq 160 milyon manat, tikinti-quraşdırma işlərinin həcmi 23,2 dəfə artaraq 143 milyon manat təşkil edib. Lənkəran rayonu artıq 3-cü ildir ki, dövlətdən dotasiya almadan yerli budcəsini daxili imkanları hesabına formalaşdırır. 2003-2018-ci illərdə Lənkəran rayonunda 31249-u daimi olmaqla 47528 yeni iş yeri açılıb, cari ildə isə ödənişli əsaslarla 1310 yeni iş yeri yaradılıb.

Bu dövrdə Lənkəran şəhərində Beynəlxalq Hava Limanı, Regional Müalicə Diaqnostika Mərkəzi, Heydər Əliyev Mərkəzi, Heydər Əliyev xatirə parkı, Gənclər Mərkəzi, Bayraq Meydanı tikilib istifadəyə verilmiş, Mərkəzi xəstəxana, Şəhər Mədəniyyət Mərkəzi, Xan sarayı əsaslı şəkildə təmir edilib.

Cənab Prezidentin xeyir-duası ilə fəaliyyətə başlamış "Nur süd" zavodu, "Pal Food" dondurma fabriki, "Gilan-Lənkəran konserv" zavodu, "Gilan-Lənkəran çay" fabriki kimi istehsal müəssisələri bu gün Lənkəranı əsl sənaye şəhəri kimi təqdim edir. Ötən ildən başlayaraq Lənkəranda xalçaçılığın inkişafına başlanılıb. Cənab Prezidentin müvafiq sərəncamı ilə yeni xalça fabriki istifadəyə verilib. Ötən il şəhərimizə səfəri zamanı cənab Prezidentin açılışında iştirak etdiyi xalça fabrikində 200 nəfərə qədər qadın xalça ustası çalışır.

2003-cü ildən bugünədək rayonda təhsilin maddi-texniki bazasının gücləndirilməsi və xalqın balaları üçün daha yaxşı təhsil şəraitinin yaradılması məqsədilə dövlət vəsaiti hesabına ümumilikdə 9236 şagird yerlik 44 məktəb, o cümlədən Heydər Əliyev Fondunun dəstəyi ilə 2024 şagird yerlik 9 məktəb binası inşa edilib, 120 yerlik uşaq evi yenidən qurulub və 3676 şagird yerlik 4 məktəb binası əsaslı təmir olunub. Bu dövrdə 1-i dövlət vəsaiti, digəri isə özəl investisiya hesabına 2 uşaq bağçası tikilib istifadəyə verilib.

2019-cu ildə isə dövlət vəsaiti hesabına birtipli layihə üzrə Şıxəkəran kənd tam orta məktəbi üçün 432 şagird yerlik müasir məktəb binası və 4 kənddə qəzalı vəziyyətdə olan məktəblər üçün modul tipli binalar tikilib istifadəyə verilib. Hazırda dövlət vəsaiti hesabına birtipli layihə üzrə Gəgiran kəndində 264 yerlik təzə məktəbin və Kosalar kəndində 96 şagird yerlik modul tipli məktəbin, Heydər Əliyev Fondunun vəsaiti hesabına birtipli layihə üzrə 360 şagird yerlik Veravul kənd 2 nömrəli tam orta məktəbi və 632 şagird yerlik Haftoni qəsəbə tam orta məktəbi üçün yeni binaların tikintisi davam etdirilir.

Cənab Prezidentin müvafiq sərəncamları ilə rayonda ümumi uzunluğu 111,7 km olan Şürük-Vel-Qamışovka, Lənkəran-Vilvan-Osakücə-Tükəncil, Vilvan-Zövlə-Boladı-Liman, Liman-Nərimanabad-Balıqçılar, Aşağı Nüvədi-Kənarmeşə-Şürük, Hirkan-Daşdatük-Biləsər, Hirkan-Mamusta-Siyavər yaşayış məskənləri istiqamətləri üzrə magistral asfalt yollar çəkilib, bu yollarda ümumilikdə irili-xırdalı 50-dən çox körpü salınıb. Lənkəran-Lerik magistral avtomobil yolunun yenidən qurulub asfaltlanması da ərazilərdə yaşayan sakinlər tərəfindən böyük razılıqla qarşılanır.

Lənkəran şəhərində ilk dəfə olaraq dünya standartlarına cavab verən içməli su xətti istifadəyə verilib. Hazırda rayonda çox iritutumlu layihə olan su-kanalizasiya sisteminin əsaslı şəkildə yenidən qurulması, yaşayış məntəqələrinin kütləvi qazlaşdırılması və elektrik təsərrüfatının müasirləşdirilməsi işləri davam etdirilir.

Rayon subtropik zonada yerləşdiyindən burada digər sahələrlə yanaşı kənd təsərrüfatının inkişafı üçün də əlverişli şərait var. Keçmişdə Lənkəran özünün dadlı düyüsü, faraş tərəvəzi, ətirli çayı, sitrus meyvələri, gözəl təbiəti və digər təbii ehtiyatları ilə tanınmışdır. Bu imkanlar bu gün də Lənkəranda var. Əslində, kənd əhalisinin böyük bir hissəsinin gəlirləri birbaşa bu imkanlardan asılıdır. Ona görə də göstərilən sahələrin inkişafı üçün rayonda əməli işlər görülür. Xüsusilə cənab Prezidentin 2017-ci ilin sentyabr ayında Lənkərana səfəri zamanı keçirilmiş çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi rayon sakinlərində əsl işgüzar ab-hava yaradıb, onları torpaq ehtiyatlarından səmərəli istifadə etməyə həvəsləndirib.

Əlbəttə, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən islahatlar kursunun Lənkəran rayonuna bəxş etdiyi dinamik inkişafın tam təhlilini kiçik bir məruzədə vermək sadəcə mümkün olmadığından mən bu inkişafın parametrləri üzrə görülmüş işlər barədə Sizlərə mümkün qədər çox məlumatlar çatdırmağa çalışdım. Ən əsası, bildirim ki, cənab Prezident İlham Əliyevin uğurla apardığı islahatlar kursunun bəhrəsi kimi Vətənimiz Azərbaycanın tərəqqisi fonunda rayonumuzun da sürətli və hərtərəfli inkişafı lənkəranlıları hədsiz sevindirir, qəlblərini iftixar hissi ilə doldurur, onları daha səylə çalışmağa, bu inkişafa layiqli töhfələr verməyə ruhlandırır.

*Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın son illərdə yeni islahatlar mərhələsinə qədəm qoyduğunu deyən* ***Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar SADIQOV*** *diqqətə çatdırdı ki, Prezident İlham Əliyevin ilin əvvəlindən bəyan etdiyi islahatlar kursu bütün sahələri əhatə edir:*

- Dünya Bankının hazırladığı "Doing Business-2020" hesabatında Azərbaycanın 20 ən islahatçı ölkə sırasında yer alması isə cənab İlham Əliyevin islahatlarının uğurlu nəticələr verdiyini bir daha təsdiqləyir.

Adətən dövlət problemlərlə üzləşəndə, çətinliyə düşəndə islahatlara əl atır. Ancaq cənab Prezident hesab edir ki, Azərbaycan bundan da sürətli inkişaf edə və daha yüksək zirvələrə yüksələ bilər. Məhz buna görə də həm idarəetmədə, həm kadr siyasətində, həm də iqtisadiyyatda yeni islahatlar kursu müəyyənləşdirib.

Tarixi, keçmişi unutmaq olmaz! Çünki keçmişini unudan gələcəyini qura bilməz! Bizlər 1990-cı illərin əvvəlində Azərbaycanda baş verən hadisələrin şahidiyik. Tanrı XX əsrin sonlarında xalqımıza ikinci dəfə müstəqil dövlət yaratmaq imkanı qismət edəndə ölkə daxilində nə həqiqi rəhbərimiz var idi, nə hamının qəbul etdiyi liderimiz! Çox ağır zamanlar keçirirdik! Xalq çox acınacaqlı günlər yaşayırdı. Hər kəs ümidsiz vəziyyətdə idi. Həqiqi rəhbər olmadığına görə başımıza oyunlar açdılar, müsibətlər gətirdilər. Ölkədə xaos və anarxiya bataqlığı, iqtisadi və siyasi böhran yaradaraq Azərbaycanı yenidən parçalamaq, xanlıqlar dövrünə qaytarmaq planını cızdılar.

Ancaq Azərbaycan xalqı özündə qüvvət tapıb vahidliyini, monolitliyini bəyan etdi və Ulu Öndər Heydər Əliyevi yenidən ölkə rəhbərliyinə dəvət elədi. Xalqın çağırışı ilə yenidən ölkə rəhbərliyinə dönən dahi şəxsiyyət düşmənlərimizin bütün planlarını alt-üst etdi, Azərbaycanı xaos və fəlakət burulğanından qurtardı. Üstəlik, müstəqilliyimizi əbədiliyə və dönməzliyə çevirərək müasir Azərbaycan dövlətinin memarı və qurucusu oldu.

Hazırda Azərbaycan Heydər Əliyev siyasi kursu ilə inamla irəliləyir. Cənab İlham Əliyev bu yolun ən layiqli davamçısıdır və onu öz təfəkkürü, uzaqgörən siyasəti və müdrikliyi ilə daha da zənginləşdirir. Ulu Öndərin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanı sabitlik, əmin-amanlıq adası kimi qoruyub saxlayır. Cənubi Qafqazın lider dövlətinə çevirərək iqtisadi qüdrətini, siyasi nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını dönmədən yüksəldir.

Bu bir həqiqətdir ki, Prezident İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi ilk günlərdən çox uğurlu xarici və daxili siyasət yeridir. Bu siyasətin mərkəzində müstəqil Azərbaycanın mənafeyi, xalqın milli maraqları durur. Son 16 ildə cənab Prezidentin həyata keçirdiyi müdrik və uzaqgörən siyasət qısa müddətdə Azərbaycanı dünya birliyinin sayılıb-seçilən üzvünə, beynəlxalq tədbirlərin, qloballaşan dünyanın problemlərinin çözüldüyü məkana çevirib. İnkişafın Azərbaycan modeli, multikulturalizm modelimiz dünyanın diqqətini özünə çəkib, bir çox ölkələrdə öyrənilməyə başlanılıb.

Respublikanın bütün bölgələrində həyata keçirilən tikinti-quruculuq, abadlıq işləri regionların simasını büsbütün dəyişib. Bu gün Bakıdan istənilən bölgəyə səfər etdikdə insanın könlü açılır. Hər bir bölgəyə ən müasir avtomobil yolları çəkilib. Rayonlarda artıq elektrik enerjisi, içməli su, mavi yanacaq problemləri yaşanmır. Cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir ki, son illərdə ölkədə 15 min kilometr avtomobil yolu tikilib, 31 yeni elektrik stansiyası inşa olunub, 2500 meqavatlıq yeni güc yaradılıb, 4 böyük su anbarı tikilib, ölkə üzrə təbii qazla təminat 96 faizə çatdırılıb. Bundan başqa, ölkədə 3 min 200-dən çox məktəb əsaslı təmir edilib və ya yenidən tikilib, 640 tibb müəssisəsi tikilib və ya yenidən qurulub, 44 Olimpiya İdman Kompleksi yaradılıb.

Ölkəmizdə sahibkarlıq sinfi formalaşıb və regionlarda iş adamlarının fəaliyyəti üçün lazımi şərait yaradılır, onlara dövlət tərəfindən güzəştli kreditlər verilir. Kiçik və orta sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının yüksəlişinə töhfələr verir.

# davamlı inkişafın yeni keyfiyyət mərhələsi

## və Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə konfransı



Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri ilə həyata keçirilən transmilli layihələr dünyanın diqqətini çəkir. Dövlət başçısı hər hansı nəhəng layihəni reallaşdırmaq istəyəndə yalnız özünə, öz dövlətinə və xalqına güvənməklə bunu uğurla gerçəkləşdirir.

Əgər Ulu Öndər Heydər Əliyev inkişafın təməl daşı sayılan "Əsrin müqaviləsi" neft sazişinin bağlanmasına nail oldusa, cənab İlham Əliyev onun müddətini daha 30 il - 2050-ci ilədək uzatdı. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, Bakı-Tbilisi-Ərzurum təbii qaz ixracı boru kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub qaz dəhlizi, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının tikintisi bu uğurlar sırasındadır. Azərbaycan həm də Şimal-Cənub, Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasında fəal iştirak edir və üzərinə düşən bütün öhdəlikləri vaxtında icra edir. Bütün bunlar isə son 16 ildə görülən işlərin bir qismidir.

Bu uğurlarla yanaşı Azərbaycan siyasi cəhətdən də yüksəlişinin pik həddindədir. Cənab İlham Əliyev ölkəmizi dünyada söz sahibinə, etibarlı tərəfdaşa çevirib. Paytaxtımız Bakı isə ən mühüm forum və konfransların, Zirvə görüşləri və sammitlərin keçirildiyi məkan kimi tanınıb. Təkcə ötən ay Bakıda keçirilən mühüm toplantılara, dövlətimizin əldə etdiyi siyasi uğurlara nəzər yetirsək görərik ki, oktyabrda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü baş tutdu və təşkilata sədrlik Qırğızıstandan Azərbaycana keçdi. ABŞ-ın paytaxtı Vaşinqtonda Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilər zamanı 2022-ci ildə keçiriləcək konqresə evsahibliyi etmək istəyən şəhərlər sırasında olan Bakı şəhəri Sinqapur, Rio-de-Janeyro və Nyu-Dehli şəhərlərindən daha çox səs topladı. 3 ildən sonra Bakıda 68 ölkəni təmsil edən 398 təşkilatın üzv olduğu federasiyanın 6 mindən çox üzvünün iştirakı ilə möhtəşəm konfrans keçiriləcək. Oktyabrın 25-26-da Azərbaycan müstəqillik tarixində ən mühüm konfranslardan birinə evsahibliyi etdi. Bakıda BMT-dən sonra ikinci böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü reallaşdı və quruma sədrlik Venesueladan Azərbaycana keçdi.

Azərbaycan Prezidenti Bakı zirvəsində çıxış edərək torpaqlarımızın 20 faizinin işğalda olduğunu bir daha dünyaya bəyan etdi və hətta BMT-nin özünü də tənqid edərək islahatların vaxtının çatdığını söylədi. Eyni zamanda, dünyada gedən problemlərin həlli yollarını göstərdi.

Göründüyü kimi, cənab İlham Əliyev Azərbaycanı multikultural və beynəlxalq forumların, konfransların keçirildiyi məkana çevirməklə yanaşı, ölkəmizi dünyaya sülh carçısı kimi də tanıdır.

Bir sözlə, Azərbaycan etibarlı, strateji tərəfdaş kimi dünyaya qucaq açır. Dünyanın humanitar, qlobal siyasi prosesləri Azərbaycanda müzakirə olunur, mühüm bəyanatlar, qətnamələr qəbul edilir. Bu isə ölkəmizin, onun liderinin yüksələn nüfuzunun göstəricisidir, cənab İlham Əliyevin diplomatiyasının uğurlarıdır.

Biz də bu qətiyyətli siyasəti ilə Azərbaycana uğur gətirən Prezidentimizə inanırıq, güvənirik. Məhz onun müdrikliyinə, qətiyyətinə görə Azərbaycan bu gün inamla danışır. Rusiyada keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında cənab İlham Əliyev dünyanın böyük dövlətlərinin siyasətçiləri qarşısında qətiyyətlə bəyan etdi ki, "Qarabağ Azərbaycandır və nida işarəsi". Bu müdrik ifadənin arxasında güc və özünəəminlik durur. Cənab İlham Əliyev bir daha dünyaya bəyan edir ki, Azərbaycan bu işğalla heç vaxt barışmayacaq.

MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilən toplantısında isə Azərbaycan Prezidenti işğalçı Ermənistanın faşist xislətini ifşa etdi. Bu ölkənin baş naziri N.Paşinyan da cənab İlham Əliyevin yanında oturmuşdu. Lakin yenə də Azərbaycan Prezidentinin fikirləri qarşısında acız qaldı. Əlbəttə ki, belə Prezidentlə ancaq fəxr etmək olar.

Ancaq dövlət başçısı bu uğurlarla da razılaşmayaraq bu gün ölkədə yeni mərhələnin başlandığını deyir və gördüyü işlərin nəticəsi göz önündədir.Təkcə bu ilin ötən dövrdəki sosial-iqtisadi yüksəlişinə nəzər yetirsək, buna şahidlik etmiş olarıq. Bu il qeyri-neft sektorunda iqtisadi artım 3 faiz, qeyri-neft sənayesində isə 15 faiz olub. Valyuta ehtiyatlarımız artıq 50 milyard dollara yüksəlib. Şahibkarlara 130 milyon manat güzəştli kredit verilib. 186 ölkə ilə ticarət əməliyyatı aparılıb və xarici ticarət dövriyyəsi 25,3 milyard dollara çatıb. İxrac məhsullarının çeşidlərinin sayı artaraq 2780-ə, qeyri-neft ixracı 15,5 faiz artaraq 1,4 milyard dollar yüksəlib.

Prezidentin böyük sosial paketi 4,2 milyon insanın maddi vəziyyətini yaxşılaşdırıb və bir ildə maaşlar, pensiyalar, təqaüdlər, müavinətlər 2 dəfə qaldırılıb. Maaş və pensiyaların daha da artacağını söyləyən dövlət başçısı son günlər idarəetmə sisteminə də yenilik gətirib. Görünən odur ki, cənab Prezident idarəetmənin daha dinamik, daha təkmil olması istiqamətində çalışır.

Prezident yeni vəzifələrə təyin olunan məmurları qəbul edərək onlara ciddi tapşırıqlarını verir. Dövlət başçısı hesab edir ki, yeni vəzifəyə təyin edilən gənc kadrlar savadlı, bilikli, ilk növbədə, vətənə bağlı, hər hansı bir xarici təsirdən azad və vətənpərvər olmalıdırlar ki, ölkənin inkişafı üçün öz səylərini göstərə bilsinlər. Bu, ilk növbədə, dövlət rəhbərinin ölkədə müxtəlif sferaların inkişafında gənclərə böyük etimad göstərməsinin əyani təzahürüdür. Eyni zamanda, Prezidentin də dediyi kimi, məqsəd yaşlı nəslin vəzifədən uzaqlaşdırılması və ya gənclərin vəzifələrə gətirilməsi deyil. Əsas məqsəd işinin öhdəsindən gələ bilməyənlərin, vəzifəsini düzgün yerinə yetirməyənlərin əvəzlənməsidir. Hazırda ölkəmizdə çox təcrübəli, işinin öhdəsindən yüksək səviyyədə gələn yaşlı kadrlar var və gənc nəsil onların təcrübəsindən bəhrələnməli, öyrənməlidir.

Hər birimiz doğma Vətənimizi sevirik. Ancaq bu ölkəni istəməyən qüvvələr də var! Hətta təəssüflər olsun ki, antiazərbaycançı şəbəkəyə xidmət edən "sapı özümüzdən olanlar" da mövcuddur. Onlar bu ölkənin uğurlarına kölgə salmağa çalışır, Azərbaycana qara yaxmaqdan ötrü çirkin oyunlara əl atırlar. Hesab edirəm ki, düşmənə və xəbis niyyətlilərə yalnız birliyimiz, səmimi və səmərəli fəaliyyətimiz, vətənə və dövlət müstəqilliyinə məhəbbətimiz və fədakar əməyimizlə qalib gələ bilərik. Bu yolda hamı və hər kəs bacarığını əsirgəməməlidir!

Azərbaycanın ən böyük uğuru iqtidarla xalqın birliyi, vəhdətidir! Ən böyük nailiyyət ölkədə formalaşan möhkəm və dönməz sabitlikdir! Bu gün biz ağsaqqallarla, gənclərin nümayəndələri ilə bir araya gələrək bu sabitliyi, vəhdəti yaradan cənab Prezidentə dəstək olduğumuzu növbəti dəfə bəyan edirik! İnanırıq ki, cənab İlham Əliyev Azərbaycanı daha möhtəşəm gələcəyə aparır və ölkəmiz hər ötən il daha möhtəşəm uğurlara imza atacaqdır.

Ali Baş Komandan İlham Əliyevin yürütdüyü siyasətlə Dağlıq Qarabağ problemini də həll edərək, dünyanın nümunə götürə biləcəyi dövlətə çevriləcəyik!

*Çıxışına Ümummilli Lider Heydər Əliyevin "Yaşlı nəsil milli-mənəvi dəyərlərimizin qızıl fondudur" sözləri ilə başlayan **Yeni Azərbaycan Partiyası Yardımlı rayon təşkilatının Gənclər Birliyinin sədri Əfsanə MAHMUDZADƏ** bildirdi ki, son illər Azərbaycan xalqının həyatına əlamətdar dövrlərdən biri kimi daxil olub:*

- Dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan çox böyük uğurlar əldə edib. Bu gün ölkəmizdə böyük quruculuq işləri aparılır. Sevindirici haldır ki, bu proseslərdə gənclər də fəal iştirak edirlər. Azərbaycan gəncliyi kifayət qədər vətənpərvərdir. Biz bunun ən yaxşı nümunəsini Aprel döyüşlərində gördük. Azərbaycan gəncləri bir yumruq kimi Ali Baş Komandanın əmri ilə birləşməyə və işğalçını məhv etməyə hazır olduqlarını ən yüksək səviyyədə göstərdilər.

Biz müharibə şəraitində yaşayırıq. Buna görə daim döyüş ruhumuz, vətənə bağlılığımız, tariximizə dəyər verməyimiz ən yüksək səviyyədə olmalıdır. Azərbaycanın qədim dövlətçilik ənənələri və zəngin mədəni tarixi var. Bu tarixin və mədəniyyətin təbliği üçün Azərbaycan gəncliyi bütün imkanlardan istifadə edir. Təbii ki, gəncliyimizin belə vətənpərvər ruhda yetişməsinin ölkədə həyata keçirilən uğurlu gənclər siyasəti ilə birbaşa bağlılığı var.

Ölkəmizin aparıcı siyasi qüvvəsi olan, milli maraqların müdafiəsi və təmin edilməsi istiqamətində uğurla fəaliyyət göstərən, Cənubi Qafqazın ən böyük partiyası olan YAP ötən müddət ərzində Azərbaycanın müasir və dinamik inkişaf edən ölkə kimi nüfuzunun daim artmasında mühüm rol oynayıb. Bu möhtəşəm proses indi də davam edir. Prezident İlham Əliyevin rəhbərliyi altında YAP milli maraqların ifadəçisi kimi Azərbaycanın hərtərəfli inkişafına öz töhfəsini verir, hər bir vətəndaşın siyasi və iqtisadi iradəsinin ən yüksək formada təmin olunmasına şərait yaradır. Bu gün əminliklə demək olar ki, yaradıcısı Ümummilli Lider olan YAP-ın fəaliyyətində Heydər Əliyevin ideya və arzuları ən ali səviyyədə həyata keçirilir.

*2019-cu ilin ölkəmizin müstəqillik tarixinə böyük uğurlar, sürətli inkişaf, tərəqqi dövrü kimi yazılacağını deyən **Lerik Rayon Ağsaqqallar Şurasının sədri Həmzə VƏLİMƏMMƏDOV** bildirdi ki, Ulu Öndər Heydər Əliyevin "şah əsəri" olan Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə sabaha doğru inamla addımlayır:*

- Bu il xalqımız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illiyini qeyd etdi. Tale Heydər Əliyevi Azərbaycan xalqına bəxt ulduzu kimi bəxş etmişdi. Heydər Əliyev az zaman kəsiyində Sovet İttifaqı kimi böyük bir dövlətdə istedadlı rəhbər, müdrik ağsaqqal kimi tanındı. Ağsaqqallıq sanki onun boyuna biçilmişdi. Ona ağsaqqallığı tale özü vermişdi. Taleyin verdiyi payı heç bir qüvvə ala bilmədi. Heydər Əliyevin rəhbərliyi altında işləmək, üç dəfə onun müqəddəs əlini sıxmaq, xeyir-duası ilə uzun illər rəhbər vəzifələrdə çalışmaq mənə də nəsib olmuşdu.

Ataların yolu oğulların yoludur, deyirlər. Azərbaycan ən güclü və qüdrətli dövrünü yaşayır. Ulu Öndərin siyasətini onun layiqli varisi, dövlət başçısı, beynəlxalq aləmdə tanınmış lider cənab İlham Əliyev davam etdirir. İlham Əliyevin 16 il prezidentliyi dövründə əldə etdiyimiz nailiyyətlər hər birimizin qəlbini fərəhlə doldurur. Ölkəmiz inkişaf dinamikasına görə ön sıradadır. Azərbaycan təkcə iqtisadi-sosial amillərlə deyil, mənəvi dəyərləri, mədəniyyəti, incəsənəti ilə dünyanı heyran qoyur.

Ağsaqqallar dövlət başçısının rəhbərliyi altında quruculuq işlərində fəal iştirak edir, zəngin həyat təcrübələri ilə gənclərə nümunə göstərirlər. Bunu Lerikin timsalında da aydın görmək olar. Cənab İlham Əliyev Lerikə dörd dəfə səfər etmişdir. Bu səfərlərdən sonra dəniz səviyyəsindən 2400 metr yüksəklikdə yerləşən dağ kəndlərinə 184 kilometr asfalt yol, 54 kəndə 422 kilometr uzunluğunda qaz kəməri çəkilmişdir. 4650 ailə mavi yanacaqdan istifadə edir. 74 kənddə müasir tələblərə cavab verən yeni məktəblər qapılarını şagirdlərin üzünə açmış, neçə-neçə həkim məntəqəsi, kitabxana, poçt şöbəsi, ticarət, ictimai iaşə obyekti istifadəyə verilmiş, yaşayış məntəqələrinə avtobus marşrutları açılmış, yaraşıqlı evlər tikilmiş, bağ-bağçalar salınmışdır. Rayon mərkəzi Lerik şəhər statusu almış, dağların ağ şəhərinə çevrilmişdir. Şəhərə dağlardan ikinci su kəməri çəkilib istifadəyə verilmişdir. Leriklilər 24 saat bulaq suyundan istifadə edirlər.

Cənab İlham Əliyevin müəllifi olduğu yeni islahatlar inkişafımızın sürətlənməsinə böyük töhfələr vermişdir. Onun son vaxtlar respublikada apardığı kadr islahatlarını biz ağsaqqallar da bəyənib dəstəkləyirik. Biz öz dövrümüzü yaşamışıq, xalqımıza, vətənimizə şərəflə xidmət etmişik. İndi estafet cavanlarındır. Bizim vəzifəmiz onları dəstəkləmək, fəaliyyətlərini düzgün istiqamətləndirməkdir.

Regionun ağsaqqalları, ziyalıları, gəncləri həmişə Prezidentin yanındadırlar. İlham Əliyev hər bir azərbaycanlının Prezidentidir. Bunu xalqına və vətəninə xidməti, xeyirxah əməlləri ilə sübut edib. Onun sosial islahatları bütün bölgələrdə olduğu kimi, Lerikdə də sakinlərin rifahının yüksəlməsinə səbəb olub.

*Hazırda ölkədə yeni islahatlar kursunun həyata keçirildiyini deyən **Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Sahil HÜSEYNZADƏ** bildirdi ki, bu, inkişafın Azərbaycan modelinin yeni mərhələsidir:*

- "Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir" - bu ifadə Prezident İlham Əliyevin Azərbaycanın inkişafı və rifahı üçün dəyişməz fəaliyyət strategiyasıdır. Hazırda cənab Prezident tərəfindən yeni islahatlar kursu həyata keçirilir. Bu, onu göstərir ki, Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyub.

Azərbaycan Prezidentinin uğurlu siyasəti ölkəmizin sürətlə inkişafına böyük töhfələr verməklə yanaşı, həm də qlobal məkandan gələn maneələrdən, mənfi təsirlərdən qoruyur. Prezidentimizin "Valday" Beynəlxalq Diskussiya Klubunda qətiyyətlə vurğuladığı "Qarabağ Azərbaycandır və nida işarəsi" fikri bu gün istər ordumuzda, istərsə də vətəndaşlarımızın dilində devizə çevrilib. Bizi birləşdirən, ruhlandıran yeni ideyaya dönüb. Müdrik xalqımız da hər zaman öz liderini, onun iradəsini dəstəkləyir. Əzmkar fəaliyyəti, güclü iradəsi ilə cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidentidir.

Azərbaycanda uğurla reallaşan dövlət gənclər siyasəti gənclərin öz bilik və bacarıqlarını realizə etməyə geniş imkanlar açıb. Bunun nəticəsidir ki, cəmiyyət həyatının ən müxtəlif sahələrində gənclərin xüsusi çəkisi ildən-ilə yüksəlməkdədir. Respublikamızda gənc nəslin inkişafına göstərilən yüksək dövlət qayğısı, onların fəaliyyətinin stimullaşdırılması həm də kreativ təşəbbüsləri və qabiliyyətləri ilə fərqlənən gənc liderlərin formalaşması ilə müşahidə olunur.

Hazırda gənclər cəmiyyətimizin fəal təbəqəsidir. Çox şadam ki, bu gün Azərbaycan gəncləri çox fəaldırlar, vətənpərvərdirlər. Bugünkü gənclik etibarlı gələcəyin təminatçısıdır. Son dövrlərdə gənclərimizin daha çox inkişafı, onların beynəlxalq aləmdə Azərbaycanımızı uğurla təmsil etməsi bizi hədsiz sevindirir.

Bu gün Azərbaycan gənci idman və bilik olimpiadalarının qalibidir. Azərbaycan gənci Lələtəpəyə bayraq sancan qəhrəman əsgərdir. Azərbaycan gənci öz yüksək intellekti ilə dünyanı heyrətləndirən ixtiraçıdır. Azərbaycan gənci bacarıqlı iş adamıdır, nümunəvi dövlət məmurudur.

Bu gün dünyada ciddi böhranların baş verdiyi, münaqişələrin, müharibələrin getdiyi bir dönəmdə cənab İlham Əliyev Azərbaycanı sabitlik adasına çevirib. Gənclər də bu imkandan maksimum yararlanaraq böyük uğurlar qazanırlar. Ona görə də əminliklə söyləyə bilərik ki, cənab İlham Əliyev Azərbaycan gənclərinin böyük hamisidir. Gənclər də öz növbəsində hər zaman İlham Əliyev siyasətinin dəstəkçisi və bu siyasətin davamçılarıdırlar. Gənclər əmindirlər ki, Azərbaycan məhz cənab İlham Əliyevin rəhbərliyi ilə xoşbəxt, parlaq gələcəyə qovuşacaq və bu yolda bir vətəndaş olaraq gənclər də cənab Prezidentin yanında olacaqlar.

*__Şirvan Şəhər Ağsaqqallar Şurasının sədri Fəxrəddin RƏHİMOV__ qeyd etdi ki, Ulu Öndər Heydər Əliyevin xalq, vətən qarşısında ən böyük xidmətlərindən biri də İlham Əliyev kimi praqmatik düşüncəli, məntiqli, geniş dünyagörüşünə malik bir şəxsiyyət yetirməsidir:*

- Ümummilli Lider Heydər Əliyevin daxili və xarici siyasət kursu, dövlət quruculuğu konsepsiyası möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab İlham Əliyevin prezidentlik dövrü ölkə həyatı üçün strateji əhəmiyyət kəsb edən sosial-iqtisadi inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, müxtəlif sahələrdə intibah və tərəqqi prosesinin geniş vüsət alması ilə səciyyələnir.

Bu gün Azərbaycan iqtisadiyyatının bütün sahələrində, o cümlədən regionlarda ciddi islahatlar aparılır. Ölkədə uğurla həyata keçirilən islahatlar Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında reallaşır.

Möhtərəm Prezidentimiz bölgələrin tarazlı və davamlı inkişafının təmin olunması, yeni iş yerlərinin açılması, vətəndaşlarla birbaşa ünsiyyət qurmaq üçün Azərbaycanın müxtəlif şəhər və rayonlarına vaxtaşırı səfərlər edir. Biz şirvanlılar bunu şəhərimizin timsalında daha aydın görürük. Prezident İlham Əliyevin son 16 ildə 8 dəfə Şirvan şəhərində səfərdə olması, yeni təhsil, səhiyyə və mədəniyyət ocaqlarının, istehsal müəssisələrinin, yaşayış binalarının, Müdafiə Sənayesi Nazirliyinin Telemexanika və "Araz" zavodlarının yeni istehsal sahələrinin, Olimpiya İdman Kompleksinin, "Cənub" Elektrik Stansiyasının, Bayraq meydanının, Kür çayı üzərində körpünün təməlqoyma və açılışı mərasimlərində iştirakı, şəhərin içməli su kəməri və kanalizasiya sisteminin yenidən qurulması istiqamətində görülən işlər bunu bir daha təsdiq edir. Biz şirvanlılar möhtərəm Prezidentimiz İlham Əliyevin şəhərimizə verdiyi bu töhfələri hər bir şəhər sakininə göstərdiyi diqqət və qayğının təzahürü kimi dəyərləndiririk.

Ölkə Prezidenti İlham Əliyevin bir kəlamını diqqətə çatdırmaq istəyirəm: "Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir və xalq-iqtidar birliyi bu gün göz qabağındadır. Bizim uğurlu siyasətimizin təməlində xalq tərəfindən göstərilən dəstək dayanır. Bu müsbət meyillərin gücləndirilməsi, əlbəttə ki, ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin edəcəkdir".

Bəli, Azərbaycanda xalq-iqtidar birliyi beynəlxalq təşkilatlar tərəfindən də yüksək dəyərləndirilir. Dünya İqtisadi Forumunun "Siyasətçilərə ictimai etimad" adlanan kateqoriyasında ölkəmizin dünyada 20-ci yerə yüksəlməsi əhali arasında aparılan sorğulara əsaslanıb.

İslahatlardan danışarkən Prezident İlham Əliyevin milli maraqlara söykənən sosial siyasətini qeyd etmək olduqca vacibdir. Cari ilin əvvəlindən ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində əməkhaqqı, pensiya, müavinətlər, təqaüdlərin artırılması, aztəminatlı insanların, tələbələrin, əlillərin, şəhid ailələri və veteranların sosial müdafiəsinin təşkili və s. buna bariz nümunədir.

Bu gün ölkəmizdə sabitlik hökm sürür, əhalinin maddi rifah halının yüksəldilməsi istiqamətində Prezident İlham Əliyev islahatları uğurla davam etdirir. Biz hamılıqla əl-ələ verib ölkədəki sabitliyin qorunmasına çalışmalıyıq. Hər sahədə biz ölkə Prezidentinə dayaq, dəstək olmalıyıq.

*Konfransda Masallı Ağsaqqallar Şurasının sədri Ələşrəf NİFTİYEV, Neftçala Ağsaqqallar Şurasının sədri Zakir SAİLOV, Salyan Ağsaqqallar Şurasının sədri Beydulla İMANOV, Cəlilabad Ağsaqqallar Şurasının sədri Əliheydər ƏSƏDOV, Cəbrayıl rayonu Gənclər və İdman İdarəsinin rəisi Emil MƏSTƏLİYEV, YAP Astara rayon təşkilatı Gənclər Birliyinin sədri Asiman QASİMLİ, Hacıqabul rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh ƏLƏSKƏROV, Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəis müavini Elbəy FƏTƏLİYEV də çıxış etdilər.*

Çıxışlarda qeyd olundu ki, müstəqil Azərbaycan bütün həyatını ölkəsinə və xalqına həsr etmiş Ulu Öndər Heydər Əliyevin bizim üçün ən əziz və müqəddəs yadigarıdır. Ulu Öndərin siyasi varisi, Azərbaycan Prezidenti İlham Əliyev bu əmanəti göz bəbəyi kimi qoruyaraq məqsədyönlü siyasəti ilə inkişafa, tərəqqiyə doğru inamla aparır. Xalqın etimadını layiqincə doğruldan cənab İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycan dünyanın ən sabit, ən mütərəqqi və sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Ölkəmizdə hər sahədə güclü inkişaf və tərəqqi var. Ardıcıl qəbul olunmuş dövlət proqramlarının icrası respublikamızın həm iqtisadi, həm də sosial sahədə olduqca dinamik və hərtərəfli inkişafını təmin edir. Ulu Öndərin "Azərbaycan dünyaya bir günəş kimi doğacaq" məşhur ifadəsi bu gün çiçəklənən Azərbaycanımızda bütün möhtəşəmliyi ilə özünü göstərir. Bu inkişafın təməlində həm də ölkəmizdəki siyasi sabitlik, xalqla rəhbərin sarsılmaz birliyi dayanır.

Konfrans iştirakçıları onu da bildirdilər ki, ağsaqqal sözünə həmişə böyük ehtiyac olub. Bu gün gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsində ziyalıların, ağsaqqalların və veteranların bugünkü fəaliyyətini yüksək qiymətləndirmək lazımdır. Bu cür konfransların keçirilməsi isə yaşlı nəslin nümayəndələrinin həyat təcrübəsinin öyrənilməsində, gənclərə vətənpərvərlik ruhunun aşılanmasında, onlarda dövlətçiliyə sədaqət, ölkənin inkişafında daha fəal iştirak etmək kimi hisslərin formalaşmasında və güclənməsində böyük önəm kəsb edir.

Bu gün ağsaqqallar öz missiyalarını uğurla yerinə yetirir, gənclərimiz isə dövlət və xalq qarşısında öz vəzifələrini layiqincə dərk edirlər. Bütün bunlar bizi həm də ölkədə həyata keçirilən siyasət ətrafında daha da sıx həmrəy edir. Çünki Heydər Əliyevin başlatdığı, İlham Əliyevin həyata keçirdiyi bu siyasət dövlət və xalqın milli maraqlarını özündə ehtiva edir.

*Respublikamızın suverenliyinin qorunması, sosial-iqtisadi inkişafın sürətlənməsi, milli-mənəvi dəyərlərin təbliği və nəsildən-nəslə ötürülməsi kimi vacib məsələlərin bu gün xüsusi prioritet təşkil etdiyini vurğulayan **Prezident Administrasiyasının məsul əməkdaşı Rasim MİRZƏYEV** qeyd etdi ki, həqiqətən də ağsaqqallarla gənclər arasında təmaslar mütəmadi xarakter daşımalı və belə görüşlər tez-tez baş tutmalıdır:*

- Gənclərin ağsaqqallardan öyrənəsi hələ çox məsələlər var. Bu, onların həyat təcrübəsini daha da artırar və dünyagörüşünü zənginləşdirər. Bütün bunların səmərəli olması üçün gənclərin ağsaqqallara güvənməsi və məsləhətlərinə əməl etməsi vacibdir.

Ümumiyyətlə, hər bir xalqın inkişafında sağlam, vətənpərvər gənclik mühüm rol oynayır. Bu gün Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkili daha böyük aktuallıq kəsb edir.

Gəncliyin qarşısında duran birinci məsələ isə vətənpərvərlikdir. Vətənpərvərlik ruhuna müxtəlif parametrlərdən, həm dini, həm siyasi, həm də ideologiya baxımından çox ciddi yanaşılmalıdır. Bu gün reallıqda Ali Baş Komandan nümunəsi var. Prezident İlham Əliyevin vətənpərvərliyi, mükəmməl dünya görüşü, siyasi mədəniyyəti, daim xalqın içində olması çox gözəl nümunədir. Vətənpərvərlik tərbiyəsi öz vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin, hər an vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. Təsadüfi deyil ki, dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir.

Sevindirici haldır ki, bu gün ona bəslənən etimadı doğruldan Azərbaycan gəncliyi cəmiyyətin bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib.

Gənclərin ağsaqqalların təcrübəsindən faydalanması çox vacib məqamdır. Gənclərin vətənə məhəbbət, milli-mənəvi dəyərlərə və adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edilməsində ağsaqqalların rolu böyükdür. Dünyada gedən qloballaşma prosesləri onu göstərir ki, bu gün ağsaqqallar və müdriklər Azərbaycan gəncliyinə doğru yolu göstərməli, onların düzgün istiqamətdə irəliləməsi üçün bütün vasitələrdən istifadə etməlidirlər.

Ağsaqqallarımız gənclərimizə böyük ümidlər bəsləyirlər. Biz onlarla birlikdə vətənimizin doğma parçası olan Qarabağın azad edilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik. Gənclərə göstərilən dövlət qayğısı göz önündədir və çalışmalıyıq ki, bu tempi aşağı salmayaq. Gənc nəslə qayğı göstərək ki, ondan sonrakı gənc nəsil də bu ənənəni davam etdirsin.

*Konfransa yekun vuran **Fəttah HEYDƏROV** dedi:*

- Hesab edirəm ki, çox məzmunlu, maraqlı konfrans keçirdik. Ağsaqqallarımız və gənclərimiz ölkədə gedən quruculuq, inkişaf və islahat prosesi barədə qənaətlərini bölüşdülər. Hər birimizin mövqeyi aydındır. Hamımız Prezident İlham Əliyevin inkişaf strategiyasını birmənalı dəstəkləyir, bu işdə ona hər cür yardım göstərməyi borcumuz hesab edirik.

Göründüyü kimi, Prezident İlham Əliyevin müəllifi olduğu milli inkişaf prosesində regional yüksəliş mühüm yer tutur. Abadlıq, quruculuq rayonlarda əsas fəaliyyət istiqamətidir. Kəndlər şəhər görkəmi alır, bölgələr müasirləşir, zəruri infrastrukturlar yaradılır. Yeni sosial islahatlar konsepsiyası bölgələrdə əhalinin güzəranında real təzahür edir. Həmçinin Heydər Əliyev Fondu regionlarda xeyirxahlığın, mərhəmətin və quruculuğun əsas ünvanına çevrilərək ümumi inkişaf prosesinə böyük töhfə verir.

Prezident İlham Əliyev hər bir azərbaycanlının prezidentidir və bunu daim sübut edir. Dövlət başçısının son sosial islahatları, maaşların, təqaüdlərin, müavinətlərin artımı bölgələrdə sakinlərin rifahını yüksəldir. Bu gün Prezidentimizin arxasında möhtəşəm xalq iradəsi, millət dəstəyi dayanır.

Bütün inkişafın zəmini Heydər Əliyev siyasi kursunun uğurlu davamıdır. Ən əsası isə Prezident İlham Əliyevin müəllifi olduğu yeni islahatlar kursu milli inkişafın davamlılığına və sürətlənməsinə mühüm töhfə verir.

Ağsaqqalların əsas vəzifəsi ölkədəki sabitliyin qorunmasına çalışmaq və uğurlar barədə gəncləri düzgün məlumatlandırmaqdır. Bugünkü tədbirdə bir daha aydın oldu ki, gənclər də İlham Əliyevin yeni islahatlar kursunu tam dəstəkləyir və Ali Baş Komandanın çağırışına əsasən Zəfər Nidasını Qarabağda qoymağa tam hazrdırlar.

Bu gün Prezident İlham Əliyev tarixin ən qüdrətli Azərbaycanının yeni şanlı səhifələrini yazır. Yeni inkişaf, quruculuq salnamələrini yaradır. Xalqımız bu şərəfli yolda daim Pezidentimizə dəstəkdir.

**"AZƏRBAYCAN"**



# Prezidentin siyasi qətiyyəti Azərbaycanın əlverişli coğrafi mövqeyindən səmərəli istifadəyə imkan verir

*Əvvəli 1-ci səh.*

"Bakı-Tbilisi-Qars tarixi layihədir, qlobal layihədir. Bu layihə ölkələri bir-birinə daha yaxın edəcək. Bu layihə bölgədə sabitliyin, təhlükəsizliyin təminatı işində öz rolunu oynayacaq. Bu layihə bizim iqtisadi imkanlarımızı artıracaq və biz böyük vəsait əldə edəcəyik. Biz heç bir yerdən heç bir yardım, heç bir kredit almadıq, öz daxili imkanlarımız hesabına bu yolu tikdik".

Dövlət başçısı qeyd etmişdir ki, layihənin tam həyata keçirilməsi istiqamətində tərəfdaş ölkələrlə müvafiq danışıqlar aparılır. Ölkəmizin texniki təcrübəsi, yüksəkixtisaslı mütəxəssisləri və maliyyə resursları olduğu üçün Azərbaycanda layihənin həyata keçirilməsi istiqamətində bütün işlər bizim tərəfimizdən görülür. Bununla yanaşı, Azərbaycan dəhlizlə bağlı qonşu ölkələrdə görülən işlərin maliyyələşməsinə də yardım göstərir. Prezident onu da nəzərə çatdırmışdır ki, tranzit ölkələr təkcə yüksək gəlir əldə etmir, bu həm də həmin ölkənin dünyada siyasi çəkisini artırır. Yeni Bakı-Tbilisi-Qars marşrutunun tam istismara verilməsi Azərbaycana gəlir gətirməklə yanaşı, dünyanın geniş bir regionunda yerləşən ölkələrlə siyasi əlaqələri genişləndirməyə imkan yaradacaq.

Prezident onu da vurğulamışdır ki, regionda baş verən hadisələr, nəhəng enerji, nəqliyyat layihələri, digər sahələrdə aparılan işlər ölkəmizin siyasi çəkisini yüksək dərəcədə artırıb. Bunun sayəsində Azərbaycan böyük hörmətə, yüksək beynəlxalq nüfuza malik olan ölkəyə çevrilib.

Uzunluğu 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolunun 504 kilometri Azərbaycan ərazisindən keçir. Bakı-Tbilisi-Qars dəmir yolu marşrutu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı xətdir. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ikinci mərhələdə 17 milyon ton, sonra daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulub. Bir sözlə, Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Yeni marşrutun fəaliyyəti sayəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq, ondan istifadə edən bütün ölkələr arasında əməkdaşlıq genişlənəcək. Bu yol sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək. Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti ölkələrimizin geosiyasi əhəmiyyətini artıracaq və əlavə imkanlar yaradacaq.

Qeyd edək ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi dünyada yük daşınmasında yeni imkan yaradıb. Bu marşrut yüklərin həm maya dəyəri, həm də vaxtında mənzil başına çatdırılması baxımından mövcud Süveyş kanalı marşrutundan sərfəlidir. Hazırda Asiyadan Avropaya yüklərin çox hissəsi dəniz yolu - Süveyş kanalı vasitəsilə daşınır. Əvvəllər bu marşrutla daşınan yüklərin nəqliyyat xərcləri baha başa gəldiyi üçün istehsalçı və alıcıların narazılığına səbəb olurdu. Odur ki, bir-biri ilə ciddi rəqabət aparan gəmiçilik şirkətləri vəziyyətdən çıxmaq üçün müvafiq tədbirlər həyata keçirməyə məcbur oldular. Onlar daşınan malların maya dəyərini aşağı salmaq üçün iritonnajlı, daha sürətli gəmilərdən istifadə etməyə başladılar. Nəticədə yükdaşımaların maya dəyəri 3 dəfə aşağı düşdü. Hazırda 21 min kilometr məsafəni 30-35 sutkaya qət etməklə bir konteyneri sifarişçilərə 850 dollara çatdırmaq mümkündür. Bununla belə, Bakı Tbilisi-Qars dəmir yolu ilə yüklərin daşınması bütün parametrlərə görə yük göndərən və yük qəbul edənlər üçün daha sərfəlidir.

BTQ-nin əhəmiyyətini onun texniki imkanları da göstərir. Hazırda Çindən İngiltərə, Fransa, Almaniya kimi ölkələrə yükdaşıma müddəti təxminən 45-62 gündür. BTQ isə həmin yükləri 12-15 günə Avropaya çatdırmaq imkanına malikdir. Bundan başqa, dəmir yolu ilə yüklərin daşınmasının maya dəyəri də aşağıdır. Qeyd edilən faktor, sözsüz ki, BTQ-yə marağın artmasını təmin edir.

Azərbaycan beynəlxalq əhəmiyyətli digər bir layihənin də reallaşmasında önəmli oyunçuya çevrilib. 2000-ci il sentyabrın 12-də Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası sazişə əsasən, "Şimal-Cənub nəqliyyat dəhlizi"nin təməli qoyuldu. Azərbaycan bu prosesin mərkəzində rol almağa başladı. Belə ki, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin qovuşduğu coğrafi məkan Azərbaycandır. Bu o deməkdir ki, Şimal və ya Cənub dəhlizindən gələn yüklər Azərbaycan vasitəsilə həm Şərqə, həm də Qərbə göndərilə bilər. Həmin şərtlər ölkəmizi bu layihədə mühüm tərəfdaşa çevirib. Çünki Azərbaycan sözügedən layihələrdə iştirak etməsə, onların heç birini reallaşdırmaq mümkün deyildi.

"Şərq-Qərb nəqliyyat dəhlizi" kimi, "Şimal-Cənub dəhlizi" də region və regiondankənar ölkələrin diqqətini özünə cəlb edib. Bunun nəticəsidir ki, Azərbaycanla yanaşı, Belarus, Bolqarıstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Oman Sultanlığı,Tacikistan, Türkiyə və Ukrayna da bu layihəyə qoşularaq onu qanuniləşdirmək üçün ratifikasiya etmişdir.

Həmin ölkələrin "Şimal-Cənub nəqliyyat dəhlizi"nə qoşulmaq istəməsi təbiidir. Belə ki, dəhlizin yaradılmasında əsas məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır. Qeyd edək ki, hazırkı marşrut üzrə yüklərin çatdırılma müddəti 6 həftədən çoxdur. Lakin mütəxəssislərin hesablamalarına görə, Şimal-Cənub nəqliyyat dəhlizi vasitəsilə yüklərin daşınma müddətinin üç həftə olması gözlənilir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan innovasiyalara açıq ölkədir

*Əvvəli 1-ci səh.*

Hətta ölkəmizin iqtisadiyyatı innovasiya fəaliyyətləri baxımından artıq 2000-ci illərdə Rusiyanı ötüb keçmişdi. Dünya iqtisadiyyatını qlobal rəqabətlilik baxımından dəyərləndirən beynəlxalq Dünya İqtisadi Forumu öz hesabatlarında Azərbaycanın qlobal rəqabətlilik potensialını real şəkildə qiymətləndirmiş və onun rəqabətlilik indeksini müəyyən etmişdir. Müasir dövrdə Azərbaycan iqtisadiyyatının istənilən sahəsində innovativ ideyaların geniş tətbiqi və potensialı kifayət qədər yüksəkdir. İstər sənaye, istər kənd təsərrüfatı, istərsə də xidmət sahələrində innovativ ideyaların tətbiq olunduğu müşahidə edilir. Bunun əsas səbəbi isə Azərbaycan dövləti tərəfindən elmin inkişafına göstərilən qayğı və innovativ ideyaların tətbiqi üçün yaradılan münbit şəraitdir.

Bundan başqa, dövlət innovasiya fəaliyyətinin reallaşması üçün lazım gələn mexanizmləri müəyyənləşdirir, innovasiya potensialından səmərəli şəkildə istifadəni təmin etməyə yönələn tədbirlər hazırlayıb həyata keçirir. Hazırda Azərbaycan Prezidentinin yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiya üzrə Dövlət Agentliyinin tabeliyində "İnnovasiyalar Mərkəzi" fəaliyyət göstərir. Eyni zamanda innovativ ideyaların biznesə tətbiqini dəstəkləmək məqsədilə "Startap Azərbaycan" layihəsi təsis edilmiş, Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən İnnovativ Biznes İnkubatoru yaradılmışdır.




Bütün bunlar elmin inkişafı, innovativ ideyaların yaradılması və tətbiqi istiqamətində hazırlanmış və uğurla həyata keçirilən çoxsaylı qanunvericilik aktları sayəsində mümkün olmuşdur. Azərbaycanda kosmik sənayenin yaradılması ilə bağlı hökumət tərəfindən hazırlanan və uğurla həyata keçirilən qanunvericilik aktı kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqındadır. Sənəd Azərbaycan Prezidentinin 4 noyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir. Bundan başqa, "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" ölkədə kosmik sahənin inkişafına Azərbaycan dövlətinin verdiyi dəyərin göstəricisidir. Bunun məntiqi nəticəsi olaraq bu gün Azərbaycan artıq kosmik ölkədir. Peyklərimizin varlığı yalnız elmi-innovativ və ya iqtisadi əhəmiyyət daşımır, eyni zamanda Azərbaycanın hərbi potensialına və dünya ölkələri sırasındakı imicinə birbaşa təsir edir. Bir sözlə, innovativ ideyaların tətbiqi ölkənin bütün sahələrinin inkişafına güclü təkan verir. Bu isə bir daha onu göstərir ki, Azərbaycan innovasiyalara açıq ölkədir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

**Qərar № 11/45**

## Mərkəzi Seçki Komissiyasının 31 oktyabr 2019-cu il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 31 oktyabr 2019-cu il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*05.11.2019-cu il*

**Qərar № 11/46**

## 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin mətni, forması, sayı və hazırlanması qaydası haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 104.1-ci maddəsinə əsasən məntəqə seçki komissiyaları səsvermənin yeri və vaxtı haqqında seçiciləri xəbərdar etməlidirlər.

Mərkəzi Seçki Komissiyasının 2013-cü il 5 iyun tarixli 5/28 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermənin yeri və vaxtı barədə bildirişlərin seçicilərə paylanması (çatdırılması) Qaydaları"nın 2.1-ci bəndinə uyğun olaraq bildirişin mətni, forması, sayı və hazırlanmasına dair tələblər Mərkəzi Seçki Komissiyasının qərarı ilə səsvermə gününə ən azı 40 gün qalmış təsdiq edilməli və müəyyən olunmuş formada və sayda poliqrafiya müəssisəsində hazırlanmalıdır.

Ona görə də seçicinin soyadı, adı, atasının adı ilə yanaşı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı haqqında, səsvermənin yeri və vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı, səsvermə qaydaları və s. bu kimi maarifləndirmə xarakterli məlumatları da özündə əks etdirən bildiriş nümunəsinin hər bir seçicinin ünvanına çatdırılması üçün respublika üzrə daimi seçici siyahılarına daxil edilmiş seçicilərin sayı nəzərə alınmaqla (məcburi köçkün statusu almış seçicilər istisna edilməklə), həmin saydan təqribən 3% artıq olmaqla Azərbaycan Respublikası Milli Məclisi Aparatının mətbəəsində mətbəə üsulu ilə hazırlanması məqsədəmüvafiqdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.6-cı, 25.2.11-ci, 28.2-ci, 28.4-cü və 104.1-ci maddələrinə və yuxarıda göstərilən Qaydaların 2.1-ci bəndinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişin mətni və forması təsdiq edilsin.
2. Səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin sayı 5 020 287 (beş milyon iyirmi min iki yüz səksən yeddi) ədəd müəyyən edilərək Azərbaycan Respublikası Milli Məclisi Aparatının mətbəəsində mətbəə üsulu ilə hazırlansın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*05.11.2019-cu il*

**Qərar № 11/49**

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Həsrət Şahbaz oğlu Hüseynov 103 saylı Gədəbəy seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsin.
2. Məhsəti Hümbət qızı Nuriyeva 124 saylı Şuşa - Ağdam - Xocalı - Xocavənd seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*05.11.2019-cu il*

**Qərar № 11/47**

## 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Sosial Demokrat Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Sosial Demokrat Partiyası Plenumunun 2019-cu il 23 oktyabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Azərbaycan Sosial Demokrat Partiyasının səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Cabir Məhərrəm oğlu Dadaşov
Gühər Rza qızı Abdullayeva
Zəhra Ağadadaş qızı Ağayeva
İskəndər Tofiq oğlu Səmədov
Eldəniz Rza oğlu Ağayev
Cavanşir Yaşar oğlu Əsədov
Xanhüseyn Gülhüseyn oğlu Əliyev
Kamil Babali oğlu Həsənov
Yaşar Sərdar oğlu Əsədov
Mətanət Nurəddin qızı Əliyeva
Ağamalı Xoşbəxt oğlu Ağayev
Yaşar Cabir oğlu Əsgərov
Sevinc Azad qızı Babayeva
Rövşən Rafiq oğlu Babayev
Oğuz Nurəddin oğlu Rəhimov
Təhməz İzzət oğlu Məmmədov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*05.11.2019-cu il*

**Qərar № 11/48**

## 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Vətəndaş Həmrəyliyi Partiyası Siyasi Şurasının 2019-cu il 1 noyabr tarixli iclasının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

1.1. səlahiyyətli nümayəndələr:
Laşa Zazayeviç Poladaşvili
Felmar Əli oğlu Ələkbərov
Seyhun Şakir oğlu Əsədli
Gülnar Faiq qızı Hüseynova
Real Əliqulu oğlu Cəfərli
Tatyana Petrovna Fətullayeva
Nəsimi Çərkəz oğlu Şərəfxanlı
Lamiyə Məhərrəm qızı Kərimova
Elman Tahir oğlu Əliyev
Mehman Şərif oğlu Sevindikov
İqbal Cankişi oğlu Adişov
Günay Vadil qızı Nərmanova

1.2. maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:
Xantural Nəsimi oğlu Şərəfxanlı

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*05.11.2019-cu il*

# Azərbaycan Şanxayda keçirilən II Çin Beynəlxalq İdxal Sərgisində iştirak edir

Çinin maliyyə və biznes mərkəzi hesab olunan Şanxay şəhərində II Çin Beynəlxalq İdxal Sərgisi işə başlayıb.

155 ölkə və regionun, 26 beynəlxalq təşkilatın qatıldığı sərgi idxal məhsullarının Çin bazarına girişini təşviq etmək və bu işə dəstək məqsədi daşıyır. Sərgidə 62 ölkənin milli pavilyonu fəaliyyət göstərir. Ümumi ekspozisiya sahəsi 360 min kvadratmetr olan sərgidə 3893 şirkət iştirak edir.

Azərbaycan da bu il sərgidə milli pavilyonla təmsil olunur. Qida məhsulları, o cümlədən şərab və spirtli içkilər, qənnadı məmulatları, meyvə şirələri və kompot, quru meyvələr, mineral sular, konservlər istehsal edən 26 şirkətimiz məhsullarını yerli idxalçılara təqdim edir. Azərbaycan məhsulları həm sərginin milli pavilyonlar, həm də biznes bölməsində nümayiş olunur.

Bir neçə ölkənin dövlət və hökumət başçısının, yüksək vəzifəli rəsmilərin iştirak etdiyi sərginin açılış mərasimində çıxış edən Çin Xalq Respublikasının Sədri Si Cinpin Şanxay sərgisinin hökumətin daxili bazarın idxal məhsullarına daha açıq olmasını təmin etmək istiqamətindəki səylərinin bir hissəsi olduğunu deyib.




Sərgidə Azərbaycandan Baş Nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak edir. Nümayəndə heyətinin üzvləri sərgi çərçivəsində təşkil olunacaq forumlarda iştirak və çıxış edəcəklər. Bundan başqa, ikitərəfli görüşlərdə Azərbaycan ilə Çin arasında iqtisadi-ticari əlaqələrin inkişaf məsələləri müzakirə olunacaq.

# Məhsullarımız ilk dəfə "Global Village" beynəlxalq yarmarkasında nümayiş olunur

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində hər il ənənəvi olaraq keçirilən "Global Village" Beynəlxalq Yarmarkasında ilk dəfə olaraq Azərbaycan məhsulları da nümayiş edilib.

Oktyabrın 29-dan 2020-ci ilin aprelinədək davam edəcək yarmarkada Azərbaycan da daxil olmaqla 78 ölkənin məhsulları 26 pavilyonda nümayiş olunur və satışı həyata keçirilir.

İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Dubaydakı Azərbaycan Ticarət Evinin təşkilatçılığı, ölkəmizin BƏƏ-dəki Ticarət Nümayəndəliyinin dəstəyi ilə yarmarka çərçivəsində Azərbaycan pavilyonu açılıb. Burada ziyarətçilərə 25 Azərbaycan şirkətinin 200-ə yaxın çeşiddə məhsulları - meyvə-tərəvəz, şirələr, kompotlar, bal, çay, mürəbbə, şirniyyat, konservləşdirilmiş məhsullar, xalçalar, kəlağayılar, milli suvenirlər, parfümeriya və s. təqdim edilir. Pavilyonda Azərbaycan məhsullarının nümayişi və satışı ilə yanaşı, "Global Village"in ümumi ərazisində və Azərbaycan pavilyonunda milli musiqimiz və mətbəximiz, "Azərbaycan irsi" guşəsində isə milli mədəniyyətimizə dair eksponatlar sərgilənir.

Azərbaycan pavilyonu, eləcə də məhsullarımız sərgi ziyarətçiləri tərəfindən maraqla qarşılanır.

Məlumat üçün bildirək ki, 1996-cı ildən təşkil edilən "Global Village" Beynəlxalq Yarmarkası hazırda Dubayın ən böyük satış bazarı, açıq havada isə dünyanın ən böyük beynəlxalq yarmarkasıdır. 2018-ci ildə "Global Village"i 7 milyon nəfər ziyarət edib.

# İşsizlikdən Sığorta Fondunun 2020-ci il üçün büdcə xərclərinin istiqamətləri açıqlanıb

**İşsizlikdən Sığorta Fondunun 2020-ci il üzrə büdcəsinin 128,2 milyon manat təşkil edəcəyi planlaşdırılır ki, bu da 2019-cu ilə nisbətən 30 faiz çoxdur.**

Fondun 2020-ci il büdcəsinin əsas xərc istiqaməti kimi 63,7 milyon manat vəsaitin özünüməşğulluq proqramının icrası işlərinə, proqrama cəlb olunanların kiçik təsərrüfat və müəssisələrini yaratmaları üçün onlara aktivlərin alınmasının maliyyələşdirilməsinə yönəldilməsi planlaşdırılır.

Həmçinin fondun gələnilki büdcəsindən işsizliyə görə sığorta ödənişləri üçün 5 milyon, peşə hazırlığı və əlavə təhsil kurslarının və peşəyönümü məsləhət xidmətlərinin, əmək yarmarkalarının və əmək birjalarının təşkili, "E-əmək birjası" portalının yaradılması, peşə standartlarının hazırlanması üçün 9,5 milyon manat ayrılması nəzərdə tutulur.

Haqqı ödənilən ictimai işlərin təşkilinə isə İşsizlikdən Sığorta Fondundan gələn il 2 milyon manat ayrılması planlaşdırılıb.

Sığortaolunanların əməkhaqqının müəyyən hissəsinin müddətli (3 ay, 6 ay, 9 ay, 1 il) sığortaedənlərlə birlikdə maliyyələşdirilməsinə 3 milyon manat yönəldilməsi də fondun 2020-ci il üçün büdcə layihəsinin xərclər istiqamətlərinə daxildir.

Gələn il DOST mərkəzləri şəbəkəsinin genişləndirilməsi, növbəti ildə yeni DOST mərkəzlərinin və 2 regional peşə tədrisi mərkəzinin yaradılması, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya, Dövlət Məşğulluq Xidmətinin saxlanması, elektron xidmətlərin genişləndirilməsi və s. işlərdə də İşsizlikdən Sığorta Fondu mühüm dəstək olacaq. Bu istiqamətlər üzrə fonddan 43 milyon manat vəsait yönəldilməsi nəzərdə tutulur.

Habelə sosial müdafiəyə ehtiyacı olanların məşğulluğu üçün məqsədli proqramlar, əmək hüquqlarının həyata keçirilməsi və digər aktiv tədbirlər üçün fonddan ayrılması planlaşdırılan vəsait 2 milyon manat təşkil edir.



# DÜNYA



■ Ekologiya

# ABŞ rəsmən Paris iqlim sazişindən çıxır

## Dünya ictimaiyyəti Vaşinqtonun qərarını hiddətlə qarşılayır



**ABŞ Paris iqlim sazişindən rəsmən çıxması prosesinin başlandığını elan etmişdir. Bu barədə dövlət katibi Mayk Pompeo məlumat vermişdir. Proses bir il davam edəcək. Sazişin şərtlərinə uyğun olaraq, ABŞ müqavilədən çıxması barədə BMT-yə rəsmi məlumat göndərmişdir.**

ABŞ Prezidenti Donald Tramp hələ seçkiqabağı kampaniyanın gedişində iqlim sazişini sərt tənqid etmiş və söz vermişdi ki, dövlət başçısı seçilsə, ABŞ müqavilədən çıxacaq. Onun fikrincə, sənəd hazırkı redaksiyasında ABŞ sənayesini olduqca məhdudlaşdırır. Ağ evin başçısı qərarını onunla əsaslandırmışdı ki, saziş iqlim dəyişikliyi ilə mübarizəyə yox, başqa ölkələrin ABŞ üzərində iqtisadi üstünlük əldə etməsinə yönəlmişdir. Tramp bəyan etmişdi ki, saziş biznesin və vergiödəyicilərinin üzərinə qeyri-şəffaf iqtisadi öhdəliklər qoyur, milli sənayeni sarsıdır. Onun hesablamalarına görə, ABŞ Paris sazişində qalmaqla 3 trilyon dollar və 6,5 milyon iş yeri itirəcək. ABŞ lideri əlavə etmişdi ki, Vaşinqton gələcəkdə yenidən müqaviləyə qoşula bilər, amma daha sərfəli şərtlərlə.

Tramp Prezident kürsüsünə əyləşdikdən sonra seçkiqabağı vədlərini, o cümlədən Paris iqlim sazişindən çıxmağı reallaşdırmağa başladı. O, 2017-ci il iyunun 1-də bəyan etdi ki, ABŞ müqavilədən çıxacaq. Nəhayət, srağagün verilmiş vəd yerinə yetirildi. ABŞ administrasiyası hesab edir ki, ölkə atmosferə bütün növ tullantıların həcmini məhdudlaşdırmışdır. Belə ki, 1970-ci ildən 2018-ci ilədək zərərli tullantılar 74 faiz, istixana qazı tullantıları isə 2005-ci ildən 2017-ci ilədək 13 faiz azalmışdır.

Dövlət katibi ABŞ-ın Paris sazişindən çıxması prosesinin başladığını bildirərkən qeyd etmişdir ki, onun ölkəsi beynəlxalq müzakirələr çərçivəsində real nəticələrə, innovasiyalara və açıq bazarların lider roluna əsaslanan real və praqmatik model təqdim etmək niyyətindədir: "Biz iqlim dəyişikliyinin təsirinin sabitliyini təmin etmək üçün qlobal tərəfdaşlarımızla işi davam etdirəcək, təbii fəlakətlərə reaksiya verməyə hazır olacağıq. Əvvəllər olduğu kimi, iqtisadiyyatımızı inkişaf etdirməklə bərabər, tullantıları azaldacaq, dostlarımıza və tərəfdaşlarımıza köməyimizi təklif edəcəyik".

Paris iqlim sazişi 2015-ci il dekabrın 12-də qəbul olunmuş və 2016-cı il noyabrın 4-də qüvvəyə minmişdir. Hazırda 197 ölkə sazişin iştirakçısıdır. Onların 185-i sənədi ratifikasiya etmişdir. ABŞ sazişi imzalayarkən atmosferə atılan istixana qazının həcmini 2025-ci ildə 2005-ci illə müqayisədə 26-28 faiz azaltmağı öhdəsinə götürmüşdü. Saziş iqlim dəyişikliyi təhlükəsinə qlobal reaksiyanı gücləndirməyə yönəlmişdir. İştirakçı ölkələr planetdə orta temperaturun 2100-cü ildə 2 dərəcədən çox artmasına imkan verməmək barədə sazişə gəlmişdir. Sənəd ilk növbədə istilik qazı tullantılarını azaltmağı nəzərdə tutur.

ABŞ Paris sazişindən çıxmaqla yanaşı, Yaşıl İqlim Fondunu maliyyələşdirməyi dayandırdığını elan etmişdir. Beləliklə, fondun büdcəsi təxminən üçdəbir qədər azalacaq.

Tramp bildirir ki, danışıqlar masasının arxasına qayıdıb sazişin amerikalılara sərfəli vəziyyətə salmaq üçün sənədə yenidən baxmağa hazırdır. Lakin problem də elə budur. Sazişə yenidən baxmaq üçün bütün iştirakçı dövlətlərin razılığı lazımdır. On il davam etmiş çətin danışıqlar prosesindən sonra əldə edilmiş sazişi dəyişdirmək üçün 200-ə yaxın dövləti sıfır nöqtəyə qaytarmaq real deyil.

Digər tərəfdən, saziş iştirakçı dövlətin üzərinə hansısa sərt öhdəlik qoymur. Hər bir ölkə atmosferə zərərli tullantıları azaltmaq və neytrallaşdırmaq məqsədini sərbəst şəkildə müəyyənləşdirir, heç kim ABŞ-a bu məqsədi sazişdən çıxmadan müəyyən etməyə mane olmur. Nəhayət, müqavilə iştirakçıların özlərinin müəyyənləşdirdiyi məqsədləri reallaşdırmadığına görə heç bir cəza nəzərdə tutmur. Ona görə də Trampın amerikalı tənqidçiləri hesab edirlər ki, dövlət başçısının qərarı iqlimdən çox ABŞ-a ziyan vurur, çünki ölkə "təmiz" texnologiyalarda dünyadan geri qalır, bərpa olunan energetikaya yetərli investisiya cəlb edə bilməyəcək, dünya lideri kimi nüfuzunu itirəcək və dünya bazarına çıxışını məhdudlaşdıracaq.

Vaşinqtonun Paris iqlim sazişindən çıxması beynəlxalq ictimaiyyətdə hiddət doğurur. Çünki Birləşmiş Ştatlar ətraf mühiti çirkləndirməkdə Çindən sonra dünyada ikinci yeri tutur. Alimlərin fikrincə, ABŞ-ın sazişin şərtlərini yerinə yetirməkdən imtina etməsi qlobal iqlim dəyişikliyinin fəsadlarını sürətləndirə bilər.

Təbii ki, iqlim dəyişikliyinin qarşısını almaq üçün dünya ölkələrinin ilk dəfə olaraq səylərini birləşdirdiyi şəraitdə ABŞ kimi superdövlətin Paris sazişindən çıxması ətraf mühitin gələcəyinə təsirsiz ötüşməyəcək. Məsələn, Yaşıl İqlim Fondunun büdcəsinin əhəmiyyətli dərəcədə azalması inkişaf etməkdə olan ölkələrdə iqlim proqramlarının reallaşdırılmasına çətinlik yaradacaq: bu cür layihələr ya ixtisar olunacaq, ya da dondurulacaq. Vəziyyət yalnız o halda dəyişə bilər ki, başqa ölkələr üzərlərinə yüksək maliyyə öhdəlikləri götürsün. Lakin hələlik hansısa dövlət müvafiq bəyanatla çıxış etməmişdir.

Üstəlik, başqa dövlətlərin ABŞ-dan nümunə götürərək Paris sazişindən çıxacağını istisna etmək mümkün deyil. Artıq presedent var: G20-nin Hamburq sammitində (2017) Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan etmişdir ki, onun ölkəsi Paris sazişinin ratifikasiyası prosesini müvəqqəti olaraq dayandıra bilər.

Buna baxmayaraq, ABŞ-ın Paris sazişindən çıxması müqavilənin statusuna təsir göstərməyəcək, çünki Paris sazişinə qoşulmuş dövlətlərin əksəriyyəti sənədin şərtlərinə sadiq qalacağını bəyan etmişdir. Eyni zamanda ABŞ-ın sazişdən çıxması prosesinin bir il davam edəcəyini nəzərə alaraq Vaşinqtonun qarşıdakı müddətdə öz qərarına yenidən baxacağını ehtimal etmək olar. Amma bu yalnız ehtimaldır və sırf nəzəri cəhətdən mümkündür.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

■ Terror

# Bağdadinin bacısı həbs olundu



**Türkiyə hakimiyyət orqanları İŞİD terrorçu təşkilatının öldürülmüş lideri Əbu Bəkr Bağdadinin böyük bacısı Rəsmiyyə Avadı ailəsi ilə birlikdə həbs etmişdir. Bu barədə "Assoşieyted Press" və "Röyter" agentlikləri xəbər verir.**

Məlumata görə, 65 yaşlı Avad Suriyanın şimalında yerləşən Hələb əyalətinin Əzaz şəhərində saxlanmışdır. O, terrorçu qruplaşma ilə əlaqədə şübhəli bilinir.

Avadla birlikdə onun həyat yoldaşı, beş övladı və gəlini saxlanmışdır. Həddi-büluğa çatanlar artıq dindirilmişlər.

■ Etiraz

# İraqda nümayişlər üzündən internet bağlandı



**İraq hökuməti iğtişaşların güclənməsi səbəbindən ölkənin paytaxtı Bağdadda və əksər regionlarda internetə girişi məhdudlaşdırmışdır. Bu barədə "NetBlocks" beynəlxalq təşkilatı məlumat vermişdir.**

On milyonlarla adam şəbəkəyə daxil olmaq imkanını tamamilə itirmişdir.

İraqda nümayişlər ötən ayın əvvəllərindən bəri davam edir. Ölkə sakinləri işsizliyə, korrupsiyaya və pis həyat şəraitinə etiraz edir, hökumətin istefasını tələb edirlər.

■ Qarşıdurma

# Vaşinqton İrana qarşı yeni sanksiyalar tətbiq etdi

## Bu dəfə hədəf Xameneinin ətrafıdır

**ABŞ İrana münasibətdə sanksiya siyahısını genişlətmişdir. Bu dəfə sanksiyalara İranın ali lideri, Ayətulla Əli Xameneinin yaxın ətrafını təmsil edən 10 nəfər məruz qalmışdır. Bu barədə ABŞ Maliyyə Nazirliyi məlumat vermişdir.**



Sanksiya siyahısına düşənlərin ABŞ-dakı aktivləri dondurulacaq, ABŞ vətəndaşlarını və şirkətlərini onlarla biznes əlaqəsinə girməsi qadağan ediləcək.

ABŞ-ın Maliyyə naziri Stiven Mnuçin bildirmişdir ki, sanksiya siyahısına düşmüş şəxslərin Amerikanın xaricdəki obyektlərinə hücumlarda əli var. Onlar, həmçinin uzun illərdir İran, xalqına zülm etmiş, bütün dünyada terrorizmi yaymış və sabitliyi pozmaq siyasəti yürütmüşlər.

Siyahıda Ayətulla Əli Xameneinin oğlu Müctəba Xamenei, İran Silahlı Qüvvələri Baş Qərargahının rəisi Məhəmməd Hüseyn Baqiri, onun müavini Qulam Əli Rəşid, İran rəhbərinin Beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti, İran Ali Məhkəməsinin sədri İbrahim Rəisi, sabiq Müdafiə naziri Hüseyn Dehqan, həmçinin bir sıra hərbçilər, din xadimləri, siyasətçilər və hökumət nümayəndələri yer alırlar.

ABŞ Tehrana qarşı yeni sanksiyaları Amerikanın İrandakı səfirliyinin binasını yerli tələbələrin tutmasının 40-cı ildönümündə tətbiq etmişdir. 1979-cu ildə iranlı tələbələr ABŞ-ın Tehrandakı səfirliyinə hücum edib 52 diplomatı girov götürmüşdülər. Srağagün səfirliyə hücumun 40-cı ildönümü münasibətilə minlərlə adam Tehranın küçələrinə çıxıb ABŞ-ın əleyhinə nümayiş keçirmişlər.

Öz növbəsində İran Xarici İşlər Nazirliyi ABŞ-ın sanksiyalarını ümidsizlik əlaməti kimi qiymətləndirmişdir. Ayətulla Xamenei ötən bazar günü bildirmişdir ki, İran ABŞ-ın təzyiqinə boyun əyməyəcək və Vaşinqtonla danışıqlara getməyəcək: "Kimsə güman edir ki, danışıqlar bütün problemləri həll edəcək. Bu yüz faiz yalandır. Qarşımızda Kuba və Şimali Koreya təcrübəsi var. Onlar şimalı koreyalı məmurlarla şəkil çəkdirir, hətta onlara məhəbbətlərini ifadə edirdilər. Amma onlar sanksiyaları zərrə qədər də yüngülləşdirmədilər".

Ümumiyyətlə, ABŞ-ın İrana qarşı sanksiyalar tətbiq etməsi artıq mütəmadi xarakter daşıyır. Bir neçə gün əvvəl Vaşinqton Tehrana qarşı yeni sanksiyaların tətbiq olunduğunu bəyan etmişdir. Bu sanksiyalar ölkənin inşaat sektorunu və raket proqramını hədəfə almışdır. Gözlənildiyinə görə, İranın nüvə silahı yaratmaq üçün istifadə edə biləcəyi dörd növ materialın ixracına qadağa qoyulacaq.

Bu arada ABŞ hakimiyyət orqanları Federal Təhqiqatlar Bürosunun 11 il əvvəl İranda itkin düşmüş keçmiş agenti Robert Levinsonun yerini müəyyənləşdirməyə kömək edə biləcək məlumata görə 20 milyon dolladək mükafat ödəməyi vəd etmişdir.

■ Kosmos

# "Voyager-2" 40 ildən sonra ulduzlararası məkandan məlumat göndərdi



**"Voyager-2" kosmik aparatı startdan təxminən 40 il sonra ulduzlararası məkandan ilk məlumatlar göndərmişdir. Bu barədə Amerikanın NASA kosmik agentliyi məlumat vermişdir.**

Məlumata görə, "Voyager-2" Yerdən aralanaraq 18 milyard kilometr məsafə qət etmiş və 2018-ci ilin noyabrında ulduzlararası məkana çıxmışdır. İndisə göndərilmiş informasiya Yerə çatmış və mütəxəssislər tərəfindən deşifrə edilmişdir.

Bu ərəfədə "Nature Astronomy" jurnalında beş məqalə çıxmışdır. Onların hərəsi aparatın beş cihazının birindən alınmış nəticələrdən bəhs edir. Bu nəticələr kosmik sahilyanı zolağın - Günəş sisteminin bitdiyi və ulduzlararası məkanın başladığı yerin mənzərəsinin təsvirini verməyə kömək edəcək.

■ Kriminal

# Rio Olimpiadasının iştirakçısı 8,5 il iş aldı

**Niderlandlı yüngül atlet, 2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş Yay Olimpiya Oyunlarının iştirakçısı Madiya Qafur narkotik maddələr qaçaqmalçılığına görə 8,5 il müddətinə azadlıqdan məhrum edilmişdir. Bu barədə TASS agentliyi xəbər verir.**




Qafur ötən yay Niderlandla Almaniya sərhədində saxlanmışdır. Sərhədçilər idmançının avtomobilində 2 milyon avro dəyərində 50 kiloqram narkotik maddə aşkar etmişdilər.

Srağagün 27 yaşlı Qafur qaçaqmalçılıqda və narkotik maddələrin qanunsuz dövriyyəsində təqsirli bilinərək 8,5 il müddətinə həbs edilmişdir.

Xatırladaq ki, Rio Olimpiadasında Qafur 4x400 metr estafetdə iştirak etmişdi. O, 2011-ci ildə gənclər arasında Avropa çempionatının bürünc medalını qazanmışdı.

■ İmpiçment

# Amerikalıların yarıdan çoxu Trampın impiçmentini dəstəkləyir

**ABŞ sakinlərinin yarıdan çoxu Prezident Donald Trampın impiçmenti məsələsi üzrə təhqiqat keçirmək zərurəti ilə razıdır. Buna WSJ və NBC telekanallarının sifarişi ilə keçirilmiş sorğunun nəticələri dəlalət edir.**

Sorğuya əsasən, vətəndaşların 55 faizi demokratların təşəbbüsünü dəstəkləmişdir. Eyni zamanda onların cəmi 24 faizi impiçment proseduru üçün əsasların yetərli olması ilə razılaşmışdır.

İmpiçment hərəkətlərinin əleyhinə sorğu iştirakçılarının təxminən üçdəbiri çıxmışdır. Onların fikrincə, Tramp vəzifəsində qalmalıdır.

Eyni zamanda Prezidentin fəaliyyətini bəyənilmə reytinqi əvvəllər olduğu kimi 43 faizdir.

■ İğtişaş

# Çilidə hökumət əleyhinə etirazlar səngimir

**Çilidə 19 gündür hökumət əleyhinə etirazlar davam edir. Nümayişlər nəticəsində indiyədək 23 nəfər həlak olmuş, 1200 nəfərdən çox adam yaralanmışdır.**



Paytaxt Santyaqoda aksiya iştirakçıları metro biletlərinin qiymətinin artmasına etiraz edirlər. Bundan əlavə, nümayişçilər əməkhaqqını və pensiyaları artırmağı, dərmanların qiymətini azaltmağı tələb edirlər.

Həmkarlar ittifaqları və qeyri-hökumət təşkilatlarının çağırışı ilə Santyaqonun minlərlə sakini irimiqyaslı etiraz aksiyasında iştirak etmişdir. Etirazçılar Prezident sarayının qarşısında və İtaliya meydanında toplaşmışdılar.

Yerli KİV-in xəbərinə görə, etirazçılarla təhlükəsizlik qüvvələri arasında vaxtaşırı toqquşmalar baş verir. Polis aksiyanın aqressiv əhvali-ruhiyyəli iştirakçılarına qarşı təzyiqli sudan və gözyaşardıcı qazdan istifadə etmişdir. Nəticədə iki polis qadın yaralanmış və xəstəxanaya aparılmışdır.

Etiraz aksiyaları təkcə Santyaqoda deyil, Çilinin Konsepsyon və Valparaiso kimi digər şəhərlərində də davam edir.

Bu arada Çilidə 6 bal gücündə zəlzələ baş vermişdir. ABŞ Geoloji Xidmətinin məlumatına görə, zəlzələnin episentri Kokimbo vilayətinin İlyapel şəhərindən 28 kilometr cənub-qərbdə olmuşdur. Yeraltı təkanları ölkənin beş regionunun, habelə paytaxt Santyaqonun sakinləri hiss etmişlər. Tələfat və dağıntılar barədə məlumat verilmir.

■ Dünya irsi

# Yaponiyada UNESKO siyahısında olan obyektlər yandı

**Yaponiyanın Gifu prefekturasında, Sirakava kəndində alov iki kiçik tikilini məhv etmişdir. Həmin evlər "qassö-dzukuri" xüsusi memarlıq məktəbinə görə UNESKO-nun Dünya İrs Siyahısına daxil edilmişdir. Bu barədə "Röyter" agentliyi xəbər verir.**



Hadisə zamanı samanlı tavanı olan məşhur tikili yanmışdır. Adamlar zərər çəkməmişlər. Sakinləri əsrlər boyu baramaçılıqla məşğul olan Sirakava kəndində müxtəlif ağac növləri və gildən inşa edilmiş, müxtəlif ot növləri və samanla örtülmüş hündür tavanları olan 55 ənənəvi yapon evi qorunub saxlanmışdır.

Bu, Yaponiyada UNESKO-nun siyahısında yer alan obyektin məhvi ilə nəticələnmiş ikinci yanğın hadisəsidir. Belə ki, ötən həftə ölkənin cənubunda yerləşən Okinava prefekturasının Naha şəhərindəki Süri qəsrində yanğın baş vermişdir. Nəticədə 7 tikili, o cümlədən kompleksin əsas binası tamamilə məhv olmuşdur.

Yanğınların səbəbi hələ ki məlum deyil. Təhqiqat aparılır.

■ Qəza

# Nepalda sərnişin avtobusu çaya düşdü

**Nepalda avtobus çaya düşmüşdür. Nəticədə 17 nəfər həlak olmuş, 50 nəfər yaralanmışdır. Avtobusda sərnişinlərin sayı həddən çox olmuşdur. Bu barədə TRT telekanalı xəbər verir.**

Xatırladaq ki, ötən həftə paytaxt Katmandunun 120 kilometrliyində Tihar festivalından qayıdan sərnişin avtobusu 20 metr hündürlükdən dərəyə aşmışdır.

Faciə ilə bitən qəzanın səbəbi texniki nasazlıq olmuşdur.

Nepalda lazımi infrastrukturun olmaması, normal yolların və nəqliyyatın çatışmaması ucbatından tez-tez qəzalar baş verir.

# Dahi şairə həsr olunmuş ədəbi-bədii məclis

Bəşəri dəyərlər şairi İmadəddin Nəsiminin 650 illik yubileyi möhtəşəm bir hadisədir. Cahana sığmayan dahi söz ustadı dünyanın sevimlisinə çevrilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2019-cu ilin "Nəsimi ili" elan olunması mütəfəkkir şairə olan ehtiramı daha da artırmışdır.

AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialının, Kürdəmir Regional Mədəniyyət İdarəsi və İmişli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə İmişli rayonunda İmadəddin Nəsimiyə həsr olunmuş ədəbi-bədii məclis keçirilmişdir. "Nəsimi ili" çərçivəsində olan bu tədbiri giriş sözü ilə N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı açmışdır.

İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev çıxış edərək tədbir iştirakçılarını salamlamış, bu əlamətdar hadisə münasibətilə onları təbrik etmişdir. Natiq 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ilə əlaqədar sərəncam vermiş, Prezident İlham Əliyevə rayon ictimaiyyəti adından dərin minnətdarlığını bildirmiş, bu əlamətdar hadisəni ölkə rəhbərinin klassik ədəbiyyatımıza, mədəniyyətimizə, incəsənətimizə göstərdiyi misilsiz diqqət və qayğının təzahürü kimi dəyərləndirmişdir.

Tədbirdə AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent, Nəsimi irsini araşdıran qrupun rəhbəri Səadət Şıxıyeva, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin şöbə müdiri, filologiya elmləri doktoru, professor Şəfəq Əlibəyli Nəsiminin keşməkeşli həyatından, yaradıcılığından, Nəsimi dühasının bəşəri xüsusiyyətlərindən danışmışlar.

Tədbirdə "Nəsimi" filmindən kadrlar, eləcə də dövlətin böyük şairin irsinə verdiyi dəyəri, "Nəsimi ili" çərçivəsində keçirilən tədbirləri əks etdirən süjetlər nümayiş etdirilmişdir. Tədbirdə Beyləqan rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Gənclik Xalq Teatrının aktyorları Elnur Abbasov, Əbdülhəsən Tağıyev "Mən bu cahana sığmazam" tamaşasından bir səhnəni, İmişli rayon Mədəniyyət Mərkəzinin əməkdaşları Sərvər Şirinov, Sənəm Məmmədli, Baxış Babaşov, Elnur Məcidov, Kərim Əhmədov hazırladıqları "Nəsimi" kompozisiyasını da tamaşaçılara təqdim etmişlər.

Əməkdar mədəniyyət işçiləri Aşıq Ağamurad Şirvanlı, balabançı Rasim Ələsgərov, xanəndələrdən 5-ci Televiziya Muğam Müsabiqəsinin qalibi Nisbət Sədrayeva və Elbrus Niftəliyev, qiraətçi Hacı Fərəc Əliyev öz ifaları ilə mərasimə xüsusi təravət, xoş ovqat və bədii ab-hava bəxş etmişlər.

***Tofiq ABDULLAYEV***

# On altı yaşadək şahmatçılardan ibarət "Azərbaycan" komandası Çorum Olimpiadasının qalibi olub

On altı yaşadək şahmatçılardan ibarət "Azərbaycan" komandası Türkiyənin Çorum şəhərində keçirilən Olimpiadanın qalibi olub. AZƏRTAC xəbər verir ki, Olimpiadanın sonuncu turunda Çin yığması ilə qarşılaşan komandamız qalib gələrək bu mötəbər turnirin çempionu adını qazanıb. Sonuncu qarşılaşmada şahmatçılarımızdan Vüqar Manafov, Əhməd Əhmədzadə və Məhəmməd Muradlı heç-heçə ediblər. Ötən ay 14 yaşlı şahmatçılar arasında dünya çempionu olan Aydın Süleymanlının rəqibinə qalib gəlməsi komandamızın qələbəsini təmin edib. Beləliklə, xallarının sayını 16-ya çatdıran "Azərbaycan" komandası Rusiya, Çin, Ukrayna kimi güclü şahmat ölkələrinin təmsilçilərini geridə qoyub.




Xatırladaq ki, turnirdə mübarizə aparan digər komandamız "Azərbaycan-Naxçıvan" isə 8 xalla 29-cu yerdə qərarlaşıb. İkinci yeri 15 xalla Özbəkistan, üçüncü yeri isə 14 xalla Belarus komandaları tutublar.

Olimpiadada uğurlu çıxışı ilə yadda qalan "Azərbaycan" komandası yüksək səviyyəli oyun nümayiş etdirərək Monqolustan, ABŞ, Kanada, İsrail, Qazaxıstan, Yunanıstan komandalarını məğlub edib. Təkcə Özbəkistan və Ukrayna yığmaları ilə heç-heçə edən şahmatçılarımız liderliyi sonadək qoruyub saxlayıblar.

Yeniyetmə şahmatçılarımızdan ibarət komandamızın qazandığı bu uğur ölkəmizdə güclü şahmatçı nəslinin yetişdiyini bir daha sübut edir. Komandamızın heyətində mübarizə aparan idmançılardan ən yüksək nəticəni Aydın Süleymanlı qazanıb. Doqquz turda yeddi xal qazanan istedadlı şahmatçı gələcəkdə daha böyük perspektivlər vəd edir.

## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi *tender elan edir*

**Tenderi keçirən: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**
**Ünvan: Bakı şəhəri, Az 1022, S.Vurğun küçəsi, 135**
Maliyyə Nazirliyi Aparatına mətbəə avadanlıqlarının satın alınması

**İştirak haqqı: 100 manat**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müvafiq satınalma üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı bu hesaba köçürülməlidir:
**A1. Benefisiar (alan) bank**
**Adı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**B2. Alan təşkilat: Azərbaycan Respublikası Maliyyə Nazirliyi**
**Hesab №: AZ83CTRE00000000000002108571**
**Büdcə səviyyə kodu - 7**
**Büdcə təsnifat kodu - 142340**
**VÖEN: 1400108191**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **27 noyabr 2019-cu il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **05 dekabr 2019-cu il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **06 dekabr 2019-cu il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC tərəfindən antivirusların və "AutoCad" proqram təminatının satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 10.10.2019-cu il tarixli qərarına əsasən "BestComp Group" MMC şirkəti kotirovka sorğusunun qalibi seçilmişdir.

Qalib şirkətlə 01.11.2019-cu il tarixli müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 26 iyun və 10 iyul tarixlərində dərc edilmiş elan ilə əlaqədar bildiririk ki, 08 avqust 2019-cu il tarixdə keçirilmiş açıq tender sorğusu metodu ilə 225412 - "Avadanlığın alınması" maddəsi üzrə katric və kompüter aksesuarlarının satın alınmasına dair tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "AZNEST" QSC elan olunmuş və 10 oktyabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 08.11.2019-cu il tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.

## "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidməti İşıqlandırma işləri üçün avadanlıq və materialların satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.
**LOT-1: İşıqlandırma işləri üçün avadanlıq və materialların satın alınması.**
Müqavilənin icra müddəti **20 dekabr 2019-cu il** tarixinə kimi müəyyən edilir.

Tender iştirakçıları https://etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə 150 AZN iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**VÖEN: 1700774621**
**H/h: AZ03AIIB33050019443600287106**
**Bank: "Kapital Bank" ASC-nin İçərişəhər filialı**
**Kod: 200060**
**VÖEN (bank): 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *digər sənədlər: analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **27 noyabr 2019-cu il saat 12:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **05 dekabr 2019-cu il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **06 dekabr 2019-cu il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 01 oktyabr 2019-cu il tarixli buraxılışında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun, fondun aparatı və yerli orqanlarının istifadəsi üçün nəzərdə tutulmuş çap və mətbəə mallarının satın alınması və 02 oktyabr 2019-cu il tarixli buraxılışında fondun nəzdində olan Sosial Xidmət Müəssisələri üçün avadanlıqların alınması tenderi podratçılar tərəfindən əsas şərtlər toplusunun tələblərinə cavab verməyən siyahı və təklif verildiyi üçün tenderin davamından imtina edilir.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu fondun aparatı və yerli orqanlar tərəfindən istifadə ediləcək çap və mətbəə mallarının satın alınması ilə əlaqədar *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanlar tərəfindən istifadə ediləcək çap və mətbəə mallarının satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 200,00 (iki yüz) manat**

**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: - 142319**
**Büdcə səviyyəsinin kodu: - 4**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **27.11.2019-cu il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **06.12.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **06.12.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən Peşə Tədris Mərkəzinin C və E bloklarının zirzəmisində emalatxana avadanlıqlarının quraşdırılması üçün zirzəminin təyinatının dəyişdirilməsi üzrə layihə-smeta sənədlərinin və Sumqayıt Kimya Sənaye Parkının S.Vurğun küçəsi, 1183 ünvanında yerləşən 94.13 hektar ərazisində inşa olunacaq avtomobil dayanacağının şəhərsalma əsaslandırılmasının layihəsinin hazırlanmasına dair iş və xidmətlərin satın alınması ilə əlaqədar keçirilmiş təkliflər sorğusu prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Təkliflər sorğusunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən "AZİN CONSTRUCTİON" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# Dövlət sərhədini qanunsuz keçməyə cəhd göstərən səkkiz nəfər saxlanılıb

Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədlərinin etibarlı mühafizəsi istiqamətində əməliyyat-qoşun tədbirlərini davam etdirir.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, noyabrın 3-də saat 00:20 radələrində Ağstafa rayonu yaxınlığındakı "Sadıxlı" sərhəd zastavasının xidməti ərazisində Azərbaycan Respublikasından Gürcüstan istiqamətində dövlət sərhədini pozmağa cəhd edən 8 nəfər Azərbaycan Respublikası vətəndaşı həmin ərazidə xidmət aparan sərhədçilər tərəfindən saxlanılıb. İlkin araşdırma zamanı həmin şəxslərin Ağstafa rayon sakinləri 2000-ci il təvəllüdlü Bukavazin İlkin Qərib oğlu, 2000-ci il təvəllüdlü Bədirov Kamran Cavad oğlu, 2004-cü il təvəllüdlü Bədirov Novruz Müzəffər oğlu, 2009-cu il təvəllüdlü Bukavazin Sevinc Qərib qızı, 2015-ci il təvəllüdlü Bədirova Asya Vaqif qızı, 2015-ci il təvəllüdlü Mirzəyev Rövşən Həmid oğlu, 2016-cı il təvəllüdlü Bukavazin Mədinə Aslan qızı və Yevlax rayon sakini 1999-cu il təvəllüdlü Bukavazin Zəminə Rəsul qızı olmaları müəyyənləşdirilib.

Faktla bağlı əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları Xəqani Sadıqova atası

**ŞABABA SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8890
Sifariş 3723
Qiyməti 40 qəpik